26 yanvar 2024 №7 (2072) www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri Qəzet 1991-ci ilin yanvarından çıxır

## Məhəmməd Füzulinin 530 illiyi ilə bağlı sərəncam



2024-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.

Prezident İlham Əliyev yanvarın 25-də Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

Sərəncamda qeyd olunur ki, Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Öz müasirlərindən başlayaraq, sonrakı dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş bütün görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişlər. Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarıdır.

Sərəncamda Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinə Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirmək tapşırılıb.

Xatırladaq ki, 30 il öncə Ulu öndər Heydər Əliyevin imzaladığı fərmanla Məhəmməd Füzulinin 500 illiyi Azərbaycanda, eləcə də Türkiyədə, Rusiyada, İraqda və digər ölkələrdə təntənə ilə qeyd edilib.

səh. 2

# TÜRKSOY Ankarada Rasim Ocaqovu yad edib

### Türkiyə Milli Kitabxanasında fotosərgi və film nümayişi

Görkəmli operator və kinorejissor, Xalq artisti Rasim Ocaqovun (1933–2006) 90 illik yubileyi ötən il geniş şəkildə qeyd olundu. Yubiley tədbirləri bu il də davam edir.

Yanvarın 22-də Ankarada, Türkiyə Milli Kitabxanasında TÜRKSOY-un təşkilatçılığı ilə Rasim Ocaqovun yubileyinə həsr olunan tədbir keçirilib.

Tədbir kitabxanada kino xadiminin həyat və yaradıcılığına aid fotoşəkillərin yer aldığı sərginin açılışı ilə başlayıb.

TÜRKSOY-un baş katibinin müşaviri Sayit Yusuf çıxışında bildirib ki, təşkilat tərəfindən Türk dünyasının görkəmli mədəniyyət və ədəbiyyat xadimlərinin irsinin beynəlxalq aləmdə təbliği istiqamətində ardıcıl işlər görülür.

Azərbaycan Respublikası Kino Agentliyinin şöbə müdiri Rəşad Qasımov Türkiyə və Azərbaycan arasında kino sahəsində münasibətlərin qurulmasına önəm verildiyini və Rasim Ocaqovun vaxtilə bu prosesə böyük dəstək göstərdiyini diqqətə çatdırıb. Qeyd olunub ki, kinorejissor lentə aldığı bir sıra filmlərdə Türkiyə mövzusuna da yer verib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi Kitabxanalar və nəşrlər şöbəsinin müdiri Taner Beyoğlu Rasim Ocaqovun yaradıcılıq özünəməxsusluğundan danışıb, vaxtilə onunla şəxsi tanışlığının olmasından məmnunluq duyduğunu dilə gətirib.



Rejissorun qızı Kəmalə Ocaqova atasının sovet dövründə Türkiyəyə səfər etdiyini və bu səfərdən çox təsirləndiyini vurğulayıb, rejissorun Azərbaycan müstəqillik qazandıqdan sonra çəkdiyi filmlərin Türkiyə ilə bağlılığını qeyd edib.

Daha sonra rejissorun yaradıcılığından bəhs edən qısametrajlı filmin təqdimatı olub. R.Ocaqovun lentə aldığı "Təhminə" (1993) filminin baş rol ifaçıları Xalq artisti Fəxrəddin Manafov, türkiyəli aktrisa Meral Konrat və ekran əsərinin ikinci rejissoru Zəfər Murtuzov sənətkarın Azərbaycan kinosunun inkişafına verdiyi mühüm töhfələrdən söz açıblar.

Qonaqlara TÜRKSOY-un Rasim Ocaqovun 90 illiyinə həsr olunan xatirə plaketləri təqdim edilib.

Sonda "Təhminə" filmi nümayiş olunub.

## Belə Şura bizə lazımdırmı?




Xəbər verildiyi kimi, yanvarın 24-də Azərbaycanın Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) nümayəndə heyəti qurumda fəaliyyətini qeyri-müəyyən müddətə dayandırmaq barədə bəyanat yayıb. Bu addım AŞPA-nın yanvarın 22-də başlayan sessiyasında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin təsdiq edilməməsinə etiraz olaraq atılıb.

Bəyanatı Strasburqda, təşkilatın binasında nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov oxuyub.

Bəyanatda deyilir:

Azərbaycan Respublikası qürurlu, müstəqil, suveren, demokratik və multikultural bir dövlətdir. Demokratiya bizim şüurlu seçimimizdir və biz 1991-ci ildə müstəqilliyimizi bərpa etdikdən sonra Azərbaycanda insan hüquqlarının müdafiəsi və qanunun aliliyinin təmin edilməsi istiqamətində böyük irəliləyişlərə nail olmuşuq.

Avropa Şurası Parlament Assambleyasının (AŞPA) əsas məqsədi müxtəlif ölkələrin parlamentariləri arasında qarşılıqlı hörmət və bərabər hüquqlara əsaslanan dialoq üçün platforma olmaqdan ibarətdir.

davamı səh. 2-də

# Dahi rus şairi Lermontov Azərbaycan mədəniyyətində

### Moskvadakı "Azərbaycan" pavilyonunda sərgi




Moskvada, Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisindəki "Azərbaycan" pavilyonunda dahi rus şairi Mixail Lermontovun (1814–1841) anadan olmasının 210 illiyinə həsr olunmuş "Lermontov zamanı. Dahi şair Azərbaycan mədəniyyətində" adlı sərgi açılıb.

Sərgi Rusiya Mədəniyyət Nazirliyinin dəstəyi ilə "Lermontov zamanı" ictimai təşkilatı ilə birgə "Azərbaycan" pavilyonu tərəfindən təşkil olunub.

Açılışda çıxış edən pavilyonun direktoru Səadət Qədirova böyük şairin Qafqazda olarkən Azərbaycana səyahəti barədə danışıb. "Lermontov Quba, Şamaxı və şairin qaldığı evinin bugünədək qorunub saxlandığı Qusarda olub. Əsərlərinin birində Lermontov Qarabağ atları haqqında da yazır. O bu diyarı nə qədər bəyəndiyini izhar edib. Şair həmçinin Avropada fransız dili qədər Qafqazda əhəmiyyətli hesab etdiyi Azərbaycan dilini öyrənib", – deyə S.Qədirova bildirib.

Pavilyonun direktoru əlavə edib ki, sərginin əsas eksponatı şairin əvvəllər məlum olmayan və həyatda olarkən çəkilən portretidir. Bu rəsm əsəri sərginin təşkilatçıları və fərdi kolleksiyaçı Roman Qavrilovun səyləri sayəsində ABŞ-dan Rusiyaya qaytarılıb. 2023-cü ilin fevral ayında sənət əsəri ekspertizadan keçib. O, 1830-cu illərin sonlarına aiddir. Rəsm əsəri "Azərbaycan" pavilyonunda ilk dəfə nümayiş olunur.

davamı səh. 3-də

## Heydər Əliyev Mərkəzində gürcü rəssamın sərgisi



Yanvarın 24-də Heydər Əliyev Mərkəzində görkəmli gürcü rəssam Lado Qudiaşvilinin əsərlərindən ibarət sərgi açılıb.

Sərgi Heydər Əliyev Mərkəzinin təşəbbüsü, Gürcüstanın Azərbaycandakı Səfirliyi və Lado Qudiaşvili Fondunun dəstəyi ilə təşkil olunub.

Tədbirdən əvvəl Lado Qudiaşvili Fondunun nümayəndəsi, rəssamın nəticəsi Elizabed Lordkipanidze jurnalistlərə müsahibəsində bildirib ki, fərdi sərgidə rəssamın Paris dövründən həyatının sonunadək yaratdığı əsərlər təqdim olunur. Həmçinin onun qrafika və rəsm əsərləri nümayiş etdirilir.

O, Heydər Əliyev Mərkəzi və Lado Qudiaşvili Fondu arasında əməkdaşlığın əhəmiyyətini, babasının Azərbaycan xalqı ilə xüsusi münasibətləri olduğunu diqqətə çatdırıb, sərginin yüksək səviyyədə təşkilinə görə Heydər Əliyev Mərkəzinə minnətdarlığını bildirib. Qeyd edilib ki, rəssamın əsərləri Azərbaycanda ilk dəfə nümayiş etdirilir.

davamı səh. 8-də

# "Xınalıq və Köç Yolu" İspaniyada təqdim olunur

### Azərbaycanın turizm imkanları "FITUR" sərgisində

Azərbaycanın turizm imkanları Dövlət Turizm Agentliyi və Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə İspaniyanın Madrid şəhərində keçirilən ənənəvi "FITUR" (Feria Internacional de Turismo) turizm sərgisində nümayiş etdirilir. Yanvarın 24-də başlayan sərgiyə ölkəmizdən dörd turizm şirkəti də qatılıb.



Agentlikdən bildirilib ki, ispandilli ölkələr üzrə nüfuzlu turizm tədbirlərindən sayılan sərgidə Avropanın bir sıra ölkələrindən, həmçinin Latın Amerikasından olan turoperatorlar və səyahət agentlikləri, eləcə də hava yolları və tanıtım şirkətləri ilə B2B (Biznesdən-biznesə) formatlı görüşlər keçirilir.

Görüşlər çərçivəsində Azərbaycanın turizm potensiallı məkanları, milli mətbəx nümunələri, şərabçılıq, qolf, eləcə də qış turizmi imkanları, dağ-xizək mərkəzləri, UNESCO-nun Dünya İrs Siyahısına ötən il daxil olmuş "Xınalıq və Köç Yolu" mədəni landşaftı, o cümlədən işgüzar turizm imkanları haqqında geniş məlumat təqdim olunur.

Sərgidə Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən birinə – BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) ev sahibliyi etməsi də diqqət mərkəzindədir.

Milli stendimizi Azərbaycanın İspaniyadakı səfiri, eyni zamanda Dünya Turizm Təşkilatı yanında daimi nümayəndəsi Ramiz Həsənov da ziyarət edib.

Yanvarın 28-dək davam edəcək sərgidə 152 ölkədən 9 mindən çox şirkət iştirak edir.

## Söz qəlb süzgəcindən keçməsə...



Bədii qiraətçilər ədəbi əsərləri tamaşaçıya, dinləyiciyə daha təsirli şəkildə çatdıranlardır. Onlar bədii mətni müəlliflərindən daha yaxşı təqdim edirlər. Yəni qiraətçilər səsləndirdikləri əsərlərin ömrünə ömür qatırlar.

Müsahibimiz tanınmış bədii qiraət ustası, 70 yaşını qeyd edən Əməkdar artist Ağalar Bayramovdur. O, sözün qüdrətinə çox inanır. Bəlkə də bədii qiraət sahəsini seçməsi də elə bu inamla bağlıdır.

"Bədii qiraət və aktyor sənətinin mahiyyəti birdir. Hər ikisində yaşantı var. Gərək sözlə yaşayasan. Üzeyir bəy deyirdi ki, sənətin iki qolu var; ya ürəkdən ağlatmalı, ya da ürəkdən güldürməlisən. Teatrın da iki emblemi var: ağlayan və gülən. Yəni komediya və faciə. Bədii qiraətdə də, məsələn, Mirzə Cəlilin "Ölülər"indən Kefli İskəndərin monoloqunu, yaxud İlyas Əfəndiyevin "Apardı sellər Saranı" əfsanə-hekayəsini, ya da Ənvər Məmmədxanlının "Buz heykəl"ini söyləyirəm. Bunların hər birinə ayrıca yanaşır, fərqli təqdim edirsən...".

səh. 6



"Qonağımız var": Zirə və Əmircanda görüşlər

səh. 4



Nəriman Məmmədovun yaradıcılığına həsr olunmuş konsert

səh. 3



Gənc Tamaşaçılar Teatrında "Antiqona"

səh.7

# Bu il Cəbrayıl şəhərinə köç olacaq...

2024-cü ildə Böyük Qayıdışın yeni ünvanlarından biri də Cəbrayıl şəhəri olacaq. Hazırda şəhərin mərkəzi olacaq ərazidə 33 yaşayış binası inşa edilir.



Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin Xüsusi Nümayəndəliyindən bildirilib ki, Cəbrayıl şəhərində inşa edilən ilk yaşayış kompleksi 33 binadan ibarətdir. 4-5 mərtəbəli binalarda 712 mənzil olacaq. Bu il inşaat işləri başa çatdıqdan sonra binalarda 2158 keçmiş məcburi köçkün məskunlaşacaq.

Xatırladaq ki, Prezident İlham Əliyev 2021-ci il oktyabrın 4-də – Cəbrayıl şəhərinin işğaldan azad edilməsinin ildönümündə rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb və şəhərin bərpasının təməl daşını qoyub.

Həmin vaxt təqdim olunan layihəyə görə, yenidən qurulacaq Cəbrayıl şəhərində ümumi məskunlaşma ərazisi 335 hektar nəzərdə tutulub. İşğaldan öncə şəhərə faktiki inteqrasiya olunmuş Şahvələdli, Qurbancəfər və Xubyarlı kəndləri də yeni baş planda şəhərin məskunlaşma ərazisinə daxil edilib. Planda 150 hektara yaxın yaşıllıq (park-meşə zolaqları), 50 hektarlıq ərazidə aqropark, 20 hektarlıq sənaye zonası da nəzərdə tutulub.

Cəbrayıl şəhərinin baş planını Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sifarişi əsasında Böyük Britaniyanın "Chapman Taylor LLP" şirkəti hazırlayıb.

# Özbəkistan-Azərbaycan münasibətlərində elm, təhsil, mədəniyyət xüsusi yer tutur

Özbəkistan ilə Azərbaycanın əlaqələri çox yüksək səviyyədədir. Özbəkistan Azərbaycanın ərazi bütövlüyünü daim dəstəkləyib. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bu gün geniş bərpa, abadlıq və quruculuq tədbirləri həyata keçirilir. Bu tədbirlərə biz də öz töhfəmizi veririk.



Özbəkistanın ölkəmizdəki səfiri Bahrom Aşrafxanov bu sözləri yanvarın 25-də Azərbaycanda Özbəkistan elm və mədəniyyət günləri çərçivəsində Bakı Dövlət Universitetində keçirilən tədbirdə söyləyib.

Özbəkistanla Azərbaycanın elm, təhsil, mədəniyyət sahələrində əlaqələrindən danışan B.Aşrafxanov bu sahədə əməkdaşlığın daha da genişləndirilməsinin, birgə elmi tədqiqatların aparılmasının, layihələrin, təcrübə mübadiləsinin həyata keçirilməsinin önəmini vurğulayıb.

Diplomat jurnalistlərə açıqlamasında Özbəkistan Prezidentinin təşəbbüsü ilə qardaş Azərbaycana hədiyyə olaraq Füzuli şəhərində məktəbin tikintisinin iki ölkənin münasibətləri üçün dərin məna kəsb etdiyini deyib: "İnsanın təhsil alması üçün bilik lazımdır, bilik insana güc verir ki, o, problemlərini həll etməkdə kömək edir".

Səfir bildirib ki, biz hər zaman təhsil və elm sahəsində birgə əməkdaşlığı davam etdirməyə hazırıq. Azərbaycanın ali təhsil müəssisələrinin Özbəkistanda filiallarının açılması, birgə təhsil müəssisələrinin yaradılması üçün dəvət edirik.

# "Tusi və Uluqbəy xalqlarımızın mənəviyyatının bir hissəsidir"

Azərbaycanda Özbəkistan elm və mədəniyyət günləri çərçivəsində Bakı Dövlət Universiteti (BDU) ilə Özbəkistan Elmlər Akademiyasının Mirzə Uluqbəy adına Astronomiya İnstitutu arasında əməkdaşlıq müqaviləsi imzalanıb.

Müqaviləni BDU-nun rektoru Elçin Babayev və Uluqbəy adına Astronomiya İnstitutunun direktoru Şuhrat Ehgamberdiev imzalayıblar.

Mərasimdə çıxış edən Elçin Babayev qeyd edib ki, bu tərəfdaşlıq birgə elmi layihələrin hazırlanmasına, iki qurumun alimləri və tələbələri arasında təcrübə mübadiləsinə, eləcə də astronomiya sahəsində təhsil proqramlarının yaradılmasına töhfə verəcək.

Şuhrat Ehgamberdiev bildirib ki, astronomiya bizim üçün sadəcə, elm deyil: "Həm Nəsirəddin Tusi, həm də Mirzə Uluqbəy xalqlarımızın mənəviyyatının bir hissəsidir".

# Dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü ildə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 ili tamam olur.

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən qüdrətli sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. Məhəmməd Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır.

Məhəmməd Füzuli istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Öz müasirlərindən başlayaraq, sonrakı dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş bütün görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişlər.

Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur.

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatı və mədəniyyəti tarixinin iftixarıdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

**1.** Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 530 illiyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 25 yanvar 2024-cü il**

# "Məhəmməd Əmin Rəsulzadə və Türk dünyası"

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında (MEK) Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi münasibətilə "Məhəmməd Əmin Rəsulzadə və Türk dünyası" mövzusunda tədbir keçirilib.

Bu barədə MEK-dən məlumat verilib. Azərbaycan Türk Ocağı İctimai Birliyi ilə birgə təşkil olunan tədbirdə Milli Məclisin deputatları, tədqiqatçılar, Rəsulzadənin ailə üzvləri iştirak ediblər.

MEK-in direktoru Məmməd Əliyev ölkə başçısının Rəsulzadənin 140 illiyi haqqında 2023-cü il 30 dekabr tarixli sərəncamını xatırladıb. Bildirib ki, Məhəmməd Əmin Rəsulzadənin və Azərbaycan Xalq Cümhuriyyətini quran digər ziyalılarımızın ruhu şaddır. Çünki hazırda Azərbaycan onların görmək istədikləri kimi – müstəqil, güclü və tam suveren bir dövlətdir.

Azərbaycan Türk Ocağı İctimai Birliyinin sədri, "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı Rəsulzadənin ictimai-siyasi fəaliyyətinə nəzər yetirib və bu mövzunun böyük araşdırma obyekti kimi maraq doğuracağını bildirib.

Milli Məclisin deputatı Arzu Nağıyev də Rəsulzadənin fəaliyyətinin elm ocaqları səviyyəsində öyrənilməsini təqdirəlayiq hesab edib.

Tarixçi-alim Firdovsiyyə Əhmədova çıxışında Rəsulzadənin "Açıq söz" qəzetindəki fəaliyyətindən, mühacirət dövründən, müsəlman Şərqində ilk demokratik cümhuriyyətin yaranmasından danışıb.

Rəsulzadənin nəvəsi Əməkdar rəssam Rais Rəsulzadə,




Şimali Kipr Türk Cümhuriyyətinin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Turganer, Azərbaycan Demokratik Jurnalistlər Liqasının sədri Yadigar Məmmədli, Türkiyənin Erciyes Universitetinin professoru Qafar Çaxmaqlı və digər çıxış edənlər mövzu ilə əlaqəli fikirlərini bölüşüblər.

Sonda Rəsulzadənin müəllifi olduğu və ona həsr edilən kitablardan ibarət sərgiyə baxış keçirilib.

# Özbək şair-publisistin kitablarının təqdimatı

Azərbaycan Yazıçılar Birliyinin (AYB) və Dünya Gənc Türk Yazarlar Birliyinin birgə təşkilatçılığı ilə Özbəkistanın "Kitab dünyası" qəzetinin baş redaktoru, şair-publisist Xasiyyət Rüstəmin Azərbaycanda çap olunan kitablarının təqdimatı keçirilib.

Dünya Gənc Türk Yazarlar Birliyinin rəhbəri İntiqam Yaşar təqdim olunan kitablar haqqında məlumat verib.

Filologiya elmləri doktoru, professor Ramiz Əskər Özbəkistan-Azərbaycan əlaqələrinin tarixindən danışıb.



AYB-nin beynəlxalq məsələlər üzrə katibi Səlim Babullaoğlu müəllifin yaradıcılığı, Özbəkistan-Azərbaycan ədəbi-mədəni əlaqələrindəki rolundan söhbət açıb.

AYB-nin katibi İlqar Fəhmi çıxışı zamanı qardaş xalqlar arasında tarixən mövcud olmuş əlaqələrin inkişafında Xasiyyət Rüstəm kimi ədəbiyyat, mədəniyyət xadimlərinin xidmətinin alqışa layiq olduğunu vurğulayıb.

"Dünya ədəbiyyatı" jurnalının baş redaktoru Seyfəddin Hüseynli, Özbəkistanın Xalq yazıçısı Erkin Azam, Özbəkistan Yazıçılar Birliyinin sədr müavinləri Qeyrət Məcid, Qafur Şerrmuhammed və başqaları qardaş xalqlar arasındakı ədəbi əlaqələrdən söz açıblar.

Tədbirin sonunda Xasiyyət Rüstəm Azərbaycanı özünün ikinci vətəni hesab etdiyini vurğulayaraq bir neçə şeirini söyləyib.

# "Matroşka"dan "Qadınım" çıxdı...

## Musiqili Teatrda premyera



Yanvarın 25-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında türkiyəli yazıçı-dramaturq Tuncər Cücənoğlunun "Matroşka" pyesi əsasında hazırlanmış "Qadınım" tamaşasının premyerası olub.

Səhnə əsəri musiqili lirik-psixoloji melodram janrında təqdim edilib. Süjet xəttinin əsasında sevgi və ehtiras dolu iki aşiqin öz hissləri uğrunda sonadək mübarizə aparması dayanıb.

Türk retro musiqilərinin canlı ifa olunduğu tamaşada əsas rolları Əmrah Dadaşov və Gültac Əlili canlandırıblar. Tamaşada teatrın xor və balet artistləri də iştirak ediblər.

Səhnə əsərinin quruluşçu rejissoru Prezident mükafatçısı İradə Gözəlovadır. Quruluşçu rəssam Vüsal Rəhim, xormeyster Məlahət Qasımova, musiqi tərtibatçısı Əmrah Dadaşovdur. Əsərin plastik həlli Əməkdar artist Nigar Şahmuradovaya, videogörüntüləri isə Murad Həsənova aiddir.

# Belə Şura bizə lazımdırmı?

## "Təəssüf ki, AŞPA-dan bəzi üzv dövlətləri hədəfə almaq üçün platforma kimi istifadə olunur"

*əvvəli səh. 1-də*

Azərbaycan 2001-ci ildə Avropa Şurasına üzv olanda insan haqlarını və qanunun aliliyini müdafiə etmək məqsədi daşıyan bu təşkilatın Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin bir hissəsinin Ermənistan tərəfindən hərbi təcavüzə və işğala məruz qalması nəticəsində hüquqları pozulmuş yüz minlərlə azərbaycanlının hüquqlarının bərpasında Azərbaycana kömək edəcəyi və beləliklə, regionda davamlı sülhün əldə olunması naminə ədalətin öz yerini tutacağı barədə səmimi bir ümid və gözlənti var idi.

2001-ci ildən 2020-ci ilə qədər olan 19 il ərzində AŞPA işğalçı dövlətdən – Ermənistandan Avropa Şurasının əsas dəyər və prinsiplərinə zidd hərəkətlərinə görə cavab verməyi tələb etməyib. Burada söhbət xüsusilə etnik təmizləməyə məruz qalmış azərbaycanlı qaçqın və məcburi köçkünlərin insan haqlarına qarşı açıq-aşkar hörmətsizlikdən gedir.

Azərbaycanın təcavüz, işğal və zorakı separatizm üzərində tarixi Qələbəsindən, ərazi bütövlüyünün və suverenliyinin bərpa olunmasından sonra biz Azərbaycanı ləkələmək, Azərbaycan xalqına uzun müddətdir inkar edilən ədalətin bərpası istiqamətində ölkənin əldə etdiyi nailiyyətlərə kölgə salmaq üçün təşkil olunmuş qarayaxma kampaniyası ilə üz-üzəyik. Təxminən 20 ilə yaxın müddətdə Azərbaycan nümayəndə heyəti erməni işğalının ağır nəticələrini gündəmə gətirərkən bizə deyirdilər ki, AŞPA münaqişə ilə bağlı məsələlərin müzakirəsi üçün düzgün format deyil. İndi isə həmin AŞPA və həmin deputatlar bunun əksini deyir və Azərbaycana hücum etmək üçün heç bir fürsəti əldən vermirlər. Beynəlxalq hüququn selektiv şərhi, dövlətlərin ərazi bütövlüyü və suverenliyi ilə bağlı məsələlərə fərqli yanaşma bu biabırçı təklifin müəlliflərinin rüsvayçı və ikiüzlü xarakterini nümayiş etdirir.

Təəssüf ki, AŞPA-dan bəzi üzv dövlətləri hədəfə almaq üçün platforma kimi istifadə olunur. Müəyyən qərəzli qruplar AŞPA-nın əsas prinsiplərindən öz dar maraqlarının təmini məqsədilə sui-istifadə edirlər. AŞPA-da siyasi korrupsiya, ayrı-seçkilik, etnik və dini nifrət, ikili standartlar, təkəbbürlülük, şovinizm hökm sürən praktikaya çevrilib.

Biz Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin etimadnaməsinə etiraz etmək təşəbbüsünü bu çirkin kampaniyanın tərkib hissəsi kimi dəyərləndiririk. Biz, həmçinin bu təşəbbüsü Azərbaycanda hazırda gedən seçki prosesinə əsassız müdaxiləyə yönəlmiş məqsədyönlü və qəbuledilməz cəhd, ölkəmizdə demokratik təsisatların fəaliyyətinə xələl gətirən məkrli addımların bariz nümunəsi kimi qiymətləndiririk. Nümayəndə heyətimizin etimadnaməsini ratifikasiya etməkdən imtina ilə bağlı təklif bütövlükdə Avropa Şurasının etibarlılığına və qərəzsizliyinə ciddi zərbə olacaq, bunun ciddi və geridönməz nəticələrinə görə məsuliyyət tamamilə onun təşəbbüskarlarının üzərinə düşəcək.

Dünyada heç kim, o cümlədən bu zalda əyləşənlər Azərbaycanla təhdid və şantaj dili ilə danışa bilməzlər. AŞPA-nın tarixində heç vaxt bu təşkilat özünü belə biabırçı şəkildə aparmayıb.




AŞPA-da mövcud olan dözülməz irqçilik, Azərbaycanofobiya və İslamofobiya mühiti fonunda Azərbaycan nümayəndə heyəti AŞPA ilə əməkdaşlığı və təşkilatda iştirakını qeyri-müəyyən müddətə dayandırmaq qərarına gəlib.

Nümayəndə heyəti bəyanatı səsləndirəndən sonra məkanı tərk edib.

***

Qeyd edək ki, AŞPA-da hər ilin əvvəlində, yanvar sessiyasında üzv dövlətlərinin nümayəndə heyətlərinin etimadnaməsinin təsdiqi kimi formal prosedur olur. Assambleya 2024-cü il üçün Azərbaycan heyətinin etimadnaməsini təsdiqləməyib.

AŞPA bununla bağlı danimarkalı parlamentari Moen Şentsinin hazırladığı hesabata əsaslanan qətnamə qəbul edib. 76 lehinə, 10 əleyhinə və 4 bitərəf olmaqla qəbul olunan qətnamədə bildirilir ki, assambleya Azərbaycanın 20 il əvvəl Avropa Şurasına daxil olmasından irəli gələn "əsas öhdəlikləri yerinə yetirmədiyi" qənaətinə gəlib.

Ölkəmizə qarşı bir sıra qərəzli fikirlərin yer aldığı qətnamədə Azərbaycanın 2023-cü ilin sentyabrında öz suveren ərazisində həyata keçirdiyi lokal antiterror əməliyyatı da xatırladılır və iddia olunur ki, guya həmin əməliyyat "Dağlıq Qarabağın bütün erməni əhalisinin Ermənistana qaçmasına və "etnik təmizləmə" iddialarına səbəb olub. Halbuki bir müddət sonra regionda olmuş BMT təmsilçilərinin də yer aldığı beynəlxalq missiya bunun əksini, yəni erməni əhalinin könüllü olaraq Azərbaycanı tərk edərək Ermənistana getdiyini təsbit etmişdi.

AŞPA-nın sözügedən qətnamə ilə bağlı məlumatında o da vurğulanır ki, bu qərar yalnız Azərbaycan parlament nümayəndə heyətinin səlahiyyətlərinə aiddir. Azərbaycan Avropa Şurasının tamhüquqlu üzvü olmaqda davam edir.

# Rəsulzadənin ədəbi-fəlsəfi irsi və müasirlik

## Ədəbiyyat İnstitutunda elmi sessiya keçirilib

Yanvarın 24-də AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Məhəmməd Əmin Rəsulzadənin ədəbi-fəlsəfi irsi və müasirlik" mövzusunda elmi sessiya keçirilib.



Əvvəlcə Məhəmməd Əmin Rəsulzadənin (1884–1955) həyat və fəaliyyəti ilə bağlı nəşrlərin yer aldığı sərgiyə baxış olub.

Tədbirdə çıxış edən AMEA-nın prezidenti akademik İsa Həbibbəyli ölkə başçısının Məhəmməd Əmin Rəsulzadənin 140 illiyi haqqında sərəncamının əhəmiyyətini diqqətə çatdırıb. Bildirib ki, son illərdə Rəsulzadənin irsini daha dərindən öyrənmək, fəaliyyətini araşdırmaq istiqamətində böyük işlər görülüb.

Ədəbiyyat İnstitutunun müvafiq şöbəsi tərəfindən hazırlanan "Azərbaycan mühacirət ədəbiyyatı kitabxanası" kitablar seriyasının I cildinin Rəsulzadəyə həsr olunduğunu xatırladan İsa Həbibbəyli bu nəşrdə ictimai-siyasi xadimin mühacirətdə olan əsərlərinin bir çoxunun ilk dəfə Azərbaycan ədəbiyyatına təqdim edildiyini söyləyib.

Rəsulzadənin əsərlərini Türkiyədə ilk dəfə çap edənlərdən biri, İzmir Ege Universitetinin kafedra müdiri Yavuz Akpınar "Türkiyə mühitinin Məhəmməd Əmin Rəsulzadəyə təsiri" mövzusunda məruzəsini təqdim edib.

Filologiya elmləri doktoru Abid Tahirli "Məhəmməd Əmin Rəsulzadənin publisistikasında Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları" mövzusunda məruzə edib. Məruzədə vurğulayıb ki, publisistik, siyasi, ədəbi-tənqidi və elmi əsərləri ilə Azərbaycanın ictimai fikir tarixində parlaq iz qoymuş M.Ə.Rəsulzadənin zəngin irsi haqqında son 30 ildə müxtəlif səpkili tədqiqat əsərləri yazılıb. Rəsulzadənin dövrünün salnaməsi kimi səciyyələndirə biləcəyimiz publisistik yaradıcılığında Cümhuriyyətin görkəmli xadimlərindən Nəsib bəy Yusifbəyli, Əhməd bəy Ağaoğlu, Fətəli xan Xoyski, Əlimərdan bəy Topçubaşov, Üzeyir Hacıbəyli və başqaları haqqında məqalələri də mühüm yer tutur. Bu mövzu indiyədək ardıcıl və sistemli tədqiqata cəlb edilməyib.

Mətbuat tarixi və publisistika şöbəsinin müdiri professor Vüqar Əhməd Rəsulzadənin mühacirətəqədərki publisistikası haqqında məruzə edib, eləcə də onun "Azərbaycan şairi Nizami", "Azərbaycan kültür gələnəkləri", "Çağdaş Azərbaycan ədəbiyyatı", "Çağdaş Azərbaycan tarixi" və s. əsərləri barədə söz açıb.

Tədbirdə filologiya üzrə fəlsəfə doktoru Təhminə Bədəlovanın "Nizami Gəncəvi Məhəmməd Əmin Rəsulzadənin tədqiqatlarında" mövzusunda məruzəsi də dinlənilib.

Ədəbiyyat İnstitutunun direktor müavini Mehman Həsənli çıxışında Rəsulzadənin həm siyasi, həm də elmi və publisistik irsinin daha dərindən təbliğinə ehtiyac olduğunu bildirib.



# Dahi rus şairi Lermontov Azərbaycan mədəniyyətində

## Moskvadakı "Azərbaycan" pavilyonunda sərgi

əvvəli səh. 1-də

Azərbaycanın Rusiya Federasiyasındakı Səfirliyinin müşaviri Aqşin Əliyev çıxışında səfir Polad Bülbüloğlunun salamlarını çatdırıb. Qeyd edib ki, Azərbaycanda Lermontovun yaradıcılığına hər zaman böyük maraq olub. Azərbaycan dünyaya dahi şairlər və yazıçılar bəxş edib. Ölkəmizdə rus ədəbiyyatına hörmətlə yanaşılır. "Azərbaycan" pavilyonunda Lermontova həsr olunmuş sərginin açılması ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsinə töhfə verir.

"Lermontov zamanı" ictimai təşkilatın rəhbəri Mariya Mixeyeva-Nikatina və digər çıxış edənlər birgə mədəni tədbirlərin keçirilməsinin vacibliyini vurğulayıblar.

Qeyd olunub ki, ilk cənub sürgünü zamanı Lermontov Azərbaycana səfər edib və bu barədə o, dostu Svyatoslav Rayevskiyə ünvanlandığı məktubda yazıb. Şair dostuna bildirib ki, Qafqazda Azərbaycan dilini (Lermontov məktubda "tatar dili" yazıb) bilmək Avropada fransız dili qədər əhəmiyyətlidir və bu dili öyrənməyə başlayıb.

Sərginin xüsusi multimedia zalının "İmprovizasiya" ekspozisiyası M.Y.Lermontov və M.F.Axundzadənin Aleksandr Puşkinin ölümü ilə bağlı poetik fikirlərinə, eləcə də Lermontovun "Demon" poemasına həsr olunub. Eyniadlı Azərbaycan xalq nağılının motivləri əsasında Lermontovun "Aşıq Qərib" nağılının illüstrasiyaları olan nadir incəsənət obyekti zala xüsusi rəng verir.

Sərginin daha bir diqqətçəkən eksponatı Rusiyanın Xalq rəssamı, məşhur heykəltaraş Aleksandr Burqanovun rus ədəbiyyatı klassikinə həsr olunmuş heykəlidir. Şairin yubileyi ilə bağlı xüsusi olaraq yaradılmış Lermontovun büstü ilk dəfə tamaşaçılara nümayiş olunub.

Qeyd edək ki, Lermontov gözəl əsərlərinin bir qismini Qafqazda yaradıb və bu diyarla bağlıdır. Onun məşhur "Qafqaz" şeiri dilimizə dəfələrlə ayrı-ayrı şairlər tərəfindən çevrilib.

*Sizdə xoşbəxtdim, a dağlar,*
*kahalar, gen düzlər!*
*Keçdi beş il, yenə könlüm sizi*
*həsrət izlər.*
*İki göz gördüm o yerlərdə,*
*ilahi gözlər*
*Yada düşdükcə pıçıldar*
*ürəyim min yerdən:*
*Sevirəm Qafqazı mən!*

Qafqaza səyahət edən şair, dramaturgiyamızın banisi M.F.Axundzadə ilə yaxından tanış olub, onun köməyi nəticəsində "Aşıq Qərib" dastanını "Türk nağılı" adı ilə yazıya alıb.

Rus şairinin (qısa müddətə də olsa) Azərbaycan dili müəllimi böyük mütəfəkkir, dramaturgiyamızın banisi M.F.Axundzadə olmuşdu və məhz onun yaxından köməyi nəticəsində Lermontov "Aşıq Qərib" dastanını "Türk nağılı" adı altında rusca yazıya almışdı.

# Daha 30 ailəyə evlərinin açarları təqdim edilib

Yanvarın 24-də Füzuli şəhərinə növbəti köç həyata keçirilib. Bakı şəhərinin Qaradağ rayonundan yola salınan 30 ailə (125 nəfər) öz yurduna qovuşub.

Ailələr qarşılandıqdan sonra onlara mənzillərinin açarları təqdim olunub. Mərasimdə Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, Qarabağ iqtisadi rayonunda daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi Nümayəndəliyinin əməkdaşları və digər şəxslər iştirak ediblər.

Bununla da Füzuli şəhərində ümumilikdə 470 ailənin (1750 nəfər) daimi məskunlaşması təmin edilib.

# Azad olunmuş ərazilərdə poçt xidməti

İşğaldan azad olunmuş ərazilərdə poçt xidmətlərinin təşkili üçün inzibati binaların müəyyən edilməsi istiqamətində işlər davam etdirilir.

"Azərpoçt" MMC-nin idarə heyətinin sədri vəzifəsini icra edən İsi Mustafayev bunu ötən ilin yekunlarına dair hesabatın təqdimatı zamanı deyib. Onun sözlərinə görə, hazırda Xankəndi poçt filialının yaradılması, Şuşa, Laçın, Xocavənd və Əskəranda poçt xidmətlərinin təşkili üçün inzibati binaların müəyyən edilməsi ilə bağlı işlər görülür.

İ.Mustafayev diqqətə çatdırıb ki, 2021-ci ildə Xocavənd rayonunun Hadrut qəsəbəsində, 2022-ci ildə isə Zəngilan rayonunun Ağalı kəndində poçt xidmətlərinin təşkili təmin olunub.

# Şəhid qəhrəmanın 20 yaşı münasibətilə xatirəsi anılıb

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin Suraxanı rayon Heydər Əliyev Mərkəzində şəhid İbrahim Həsənovun anadan olmasının 20-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirilib.



Əvvəlcə İbrahim Həsənovun həyatından bəhs edən videoçarx nümayiş olunub.

Çıxışlarda 44 günlük Vətən müharibəsində şanlı Ordumuzun qələbəsində yaşatdığı Zəfər ruhundan danışılıb. Şəhidin döyüş yoldaşı, ailə üzvləri və yaxınları onun haqqında xatirələrini bölüşüblər.

Bədii hissədə Azərbaycan Milli Konservatoriyasının tələbəsi Manaf Əliyev "Xudayar təsnifi"ni, muğam müsabiqəsinin laureatı Məftun Məmmədov "Mənim Azərbaycanım", müğənni Mirəli Cavadov isə "Bir ömrün nəğməsi" mahnılarını səsləndiriblər. 327 və 318 nömrəli tam orta məktəblərin şagirdləri vətənpərvərlik mövzusunda şeirlər söyləyiblər.

Qeyd edək ki, İbrahim Şöhrət oğlu Həsənov 2004-cü ildə Suraxanı rayonunun Bülbülə qəsəbəsində anadan olub. 2022-ci il sentyabrın 13-nə keçən gecə Ermənistan Silahlı Qüvvələrinin Kəlbəcər rayonu istiqamətində Ordumuzun bölmələrinə qarşı törətdiyi təxribat nəticəsində şəhidlik zirvəsinə ucalıb. Dövlət başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni və "Vətən uğrunda" medalı ilə təltif olunub.

# "Qonağımız var": Zirə və Əmircanda görüşlər



Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin təşkilatçılığı ilə "Qonağımız var" layihəsi üzrə tanınmış mədəniyyət və ədəbiyyat xadimləri ilə görüşlər davam edir.

Layihə çərçivəsində Zirə qəsəbə Mədəniyyət Mərkəzində tanınmış teatr və kino aktyoru Xalq artisti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin professoru, Prezidentin fərdi təqaüdçüsü Məmmədsəfa Qasımovla görüş təşkil olunub.

Tədbirin aparıcısı sənətkarın ömür və sənət yolu haqqında ətraflı məlumat verib və bununla bağlı videoçarx nümayiş etdirilib.

Məmmədsəfa Qasımov çıxış edərək layihəyə dəvət olunduğuna görə təşkilatçılara təşəkkürünü bildirib. O, aktyorluq sənətinin çətinliklərindən, müasir gənclərin bu sahəyə münasibətindən bəhs edib, bir sıra filmlərdə canlandırdığı obrazlar haqqında söhbət açıb.

Sonda aktyor yaradıcılıq yolu ilə bağlı sualları cavablandırıb, kino və teatr sənətləri barədə fikirlərini bölüşüb.

***

"Qonağımız var" layihəsi üzrə baş idarənin Əmircan qəsəbə Mədəniyyət evində tanınmış xanəndə, Azərbaycan Milli Konservatoriyasının professoru, Xalq artisti Mənsum İbrahimovla görüş keçirilib.

Tədbirdə rəsmilər, mədəniyyət işçiləri, şəhid anaları və Suraxanı rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Bildirilib ki, Mənsum İbrahimov istedadlı xanəndə olmaqla yanaşı, Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solistidir. O bir sıra operalarda, o cümlədən "Leyli və Məcnun"da Məcnun, "Aşıq Qərib"də Qərib, "Gəlin qayası"nda Camal rollarını yüksək sənətkarlıqla ifa edib. Sənətkar həmçinin konservatoriyada gənc xanəndələrin yetişdirilməsinə öz töhfəsini verir.

Mənsum İbrahimov operalarda yaratdığı obrazlardan, Azərbaycan muğamının inkişafı, tədrisi və təbliği istiqamətində fəaliyyətindən bəhs edib, ona ünvanlanan sualları cavablandırıb.

Sonda Mənsum İbrahimovun rəhbərliyi ilə "Qarabağ" muğam qrupu "Zəfər nəğməsi"ni səsləndirib. Xanəndəni Xalq artisti Elçin Həşimov (tar), Əməkdar artist Elnur Əhmədov (kamança) müşayiət ediblər.

# Bəstəkar Nəriman Məmmədovun yaradıcılığına həsr olunmuş konsert

Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasında Xalq artisti, bəstəkar Nəriman Məmmədovun yaradıcılığına həsr olunmuş konsert keçirilib.



Filarmoniyadan bildirilib ki, konsert proqramında Nəriman Məmmədovun əsərləri səsləndirilib.

F.Əmirov adına Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının instrumental heyətinin müşayiəti ilə solistlər – Əməkdar artistlər Gülüstan Əliyeva, Ehtiram Hüseynov, Sevinc Sarıyeva, xanəndələr Rəvanə Qurbanova, Sərxan Bünyadzadə, Nurlan Əzizbəyli, Vəfa Vəzirova, Nurlana Abdullayeva, Kamran Şəkərov və Murad Laçın öz ifalarını dinləyicilərə təqdim ediblər.

# "Subaylarınızdan görəsəniz" – Mingəçevir səhnəsində daha nələr var?

Mingəçevir Dövlət Dram Teatrında İsi Məlikzadənin "Subaylarınızdan görəsəniz" komediyası tamaşaya qoyulur.



Əsərə Xalq artisti Valeh Kərimov quruluş verir. Tamaşanın quruluşçu rəssamı Pakizə Adilbəyli, musiqi tərtibatçısı Elnur Rəsulov, rejissor assistenti Məlahət Ağayevadır.

Rolları əməkdar artist Şıxı Yaqubov, aktyorlar Afət Əliyeva, Turqut Məsimli, Hüseyn Mustafayev, Aytən İsmayılova, Vəfa İsmayılova, Elvin Əkbərli, Cavidan Abdullayev, İbrahim Salamov, Asim Əmirov və başqaları ifa edirlər.

Mingəçevir Dövlət Dram Teatrının cari il üçün yaradıcılıq planında "Hacı Qara" (M.F.Axundzadə), "Ceyhunun zaman maşını" (A.Həsənoğlu) və "Həyatla oyun" (A.Soltan) tamaşalarının hazırlanması da nəzərdə tutulub. Hər üç tamaşaya teatrın baş rejissoru Vüsal Mehrəliyev quruluş verəcək.

# Şəki teatrı tamaşaçıları yeni səhnə əsərləri ilə sevindirəcək

Şəki Dövlət Dram Teatrı 2024-cü ildə də sənətsevərləri bir-birindən maraqlı tamaşalarla sevindirəcək. Teatrdan bildirilib ki, Mədəniyyət Nazirliyi tərəfindən təsdiq edilmiş repertuar planına əsasən, bu il teatrda dörd yeni tamaşa hazırlanacaq.



Hazırda teatrın baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimlinin quruluşunda repertuar planında nəzərdə tutulan ilk səhnə əsərinin – görkəmli alman ədibi Bertold Brextin "Kuraj ana və uşaqları" pyesi əsasında hazırlanan tamaşanın məşqlərinə başlanılıb.

Quruluşçu rejissor Elvin Nuri tərəfindən tamaşaya qoyulması planlaşdırılan digər əsər isə Xalq yazıçısı İlyas Əfəndiyevin "Sən həmişə mənimləsən" pyesidir. Tamaşa yazıçının anadan olmasının 110 illiyinə həsr olunur. Bundan əlavə, teatrın 2024-cü il repertuarına dramaturq Altay Məmmədovun "Ulduzlar görüşəndə" (rejissor Hüseyn Hüseynli) və Vilyam Şekspirin "Heç nədən hay-küy" (rejissor Mirbala Səlimli) komediyaları da daxil edilib.

Bu ilin tədbirlər planında həmçinin Şəki teatrının nailiyyətlərinin geniş tamaşaçı kütləsinə çatdırılması və mədəniyyət tariximizin təbliğ olunması məqsədilə müxtəlif tədbirlərin keçirilməsi də nəzərdə tutulur. Bu sənət ocağında Şəkidə milli peşəkar teatrın yaranmasının 145 illiyi münasibətilə tədbir təşkil olunacaq.

Bundan əlavə, IV Şəki Beynəlxalq Teatr Festivalı da Şəki teatrının yubileyinə həsr ediləcək.

# Qazaxıstan səfiri Tarix Muzeyində

## İki ölkə əlaqələri ilə bağlı eksponatların kataloqunun nəşri təklif edilib

Qazaxıstan Respublikasının ölkəmizdəki səfiri Alim Bayel Milli Azərbaycan Tarixi Muzeyində olub. Bu barədə muzeydən məlumat verilib.



Görüşdə muzeyin direktoru akademik Nailə Vəlixanlı Azərbaycan-Qazaxıstan əlaqələrinin əhəmiyyətini vurğulayıb, rəhbərlik etdiyi müəssisə haqqında məlumat verib.

İki ölkənin mədəni-tarixi əlaqələri və Qazaxıstan tərəfi ilə muzey arasında səmərəli əməkdaşlıq layihələri barədə danışıqlar aparılıb.

Səfir A.Bayel muzeydə qorunan Azərbaycan və Qazaxıstan tarixi əlaqələri ilə bağlı eksponatların təbliğatı istiqamətində kataloqun nəşr olunması təklifini irəli sürüb və bu eksponatları hər iki ölkə arasında mövcud ictimai-mədəni əlaqələrin inkişaf dinamikasının göstəricisi olduğunu vurğulayıb.

Səfir məşhur xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin Ev-Muzeyini ziyarət edib. Qonağa muzeyin dəyərli eksponatları əsasında hazırlanmış nəşrləri hədiyyə olunub.

№7 (2072)
26 yanvar 2024
www.medeniyyet.az

# Gəncə şəhər Heydər Əliyev Mərkəzi 10-cu ilində

Gəncə şəhər Heydər Əliyev Mərkəzinin fəaliyyətə başlaması-nın 10 illiyi ilə əlaqədar dəyirmi masa təşkil olunub.

Tədbirdə Gəncə-Daşkəsən RMİ-nin nümayəndələri, idarənin tabeliyində fəaliyyət göstərən Heydər Əliyev mərkəzlərinin direktorları və digər qonaqlar iştirak ediblər.

Mərkəzin əməkdaşları 10 il ərzində görülən işlər, keçirilən layihələr barədə danışıblar. Tədbir iştirakçıları mərkəzin kollektivinə təbriklərini çatdırıb, işlərində uğurlar arzulayıblar.

# Cümhuriyyətin qurucusu

Görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banisi Məhəmməd Əmin Rəsulzadənin (1884–1955) 140 illiyinin qeyd edilməsi haqqında dövlət başçısının sərəncamına əsasən Astara rayon Heydər Əliyev Mərkəzində tədbir keçirilib.



Tədbirdə Astara şəhər 5 saylı tam orta məktəbin şagirdləri də iştirak ediblər.

Tədbirdə "Cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadə" adlı film nümayiş olunub.

Çıxışlarda bildirilib ki, M.Ə.Rəsulzadə XX əsrin ilk onilliklərində Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərib. O, siyasi fəaliyyəti ilə bərabər, dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irs yaradıb. Ömrünü mühacirətdə başa vuran Rəsulzadə müstəqil Azərbaycan uğrunda mübarizəsindən əl çəkməyib.

Sonda tədbir iştirakçıları Astara rayon Heydər Əliyev Mərkəzinin fondundakı kitabların sərgisi ilə tanış olublar.

# Yanvar ayında doğulan şəhidlərin xatirəsi anılıb

"Naxçıvan Şəhid Ailələri" İctimai Birliyinin təşkilatçılığı ilə yanvar ayında doğulan şəhidlərin xatirəsi yad edilib.



Rəsmilər, şəhid ailələri, qazilər, ictimaiyyət nümayəndələrinin, eləcə də tələbə-gənclərin iştirak etdiyi tədbirdə Naxçıvan televiziyasının hazırladığı videoçarx nümayiş olunub.

Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Dövlət Texniki Kollecinin tələbələri videoçarxda adları çəkilən Birinci və İkinci Qarabağ müharibəsinin 49 şəhidinin portretlərini təqdim ediblər.

İctimai birliyin sədri Vətən müharibəsinin şəhid baş leytenantı Amin Gülməmmədovun atası Mayis Gülməmmədov Naxçıvanın igid övladlarından söz açıb, şəhid və qazilərimizin şərəfli ömür və döyüş yolunun hər bir gənc üçün əsl vətənpərvərlik örnəyi olduğunu bildirib.

Şəhid Ülvi Cəfərovun atası Habil Cəfərov şəhid ailələri adından çıxış edərək göstərilən diqqət və qayğıya görə təşəkkür edib.

Sonda Naxçıvan Dövlət Texniki Kollecinin tələbələri şəhidlərin xatirəsinə həsr olunmuş kompozisiya ilə çıxış ediblər.

# Yaşıl dünya naminə – təmiz ətraf mühit, sağlam gələcək

Astara rayon Mərkəzi Kitabxananın Uşaq şöbəsində "Əlyazısı günü" (23 yanvar) və Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə 2024-cü ilin ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi münasibətilə "Təmiz ətraf mühit, sağlam gələcək" mövzusunda inşa-yazı müsabiqəsi keçirilib.

Müsabiqədə Astara şəhər M.Ə.Sabir adına 1 və 5 saylı tam orta məktəblərin V sinif şagirdləri iştirak ediblər. Qaliblərə fəxri fərman və hədiyyələr təqdim olunub.

***



Masallı rayon Heydər Əliyev Mərkəzində GİKM-in Lənkəran-Astara regional nümayəndəliyinin Masallı bölməsi ilə birgə "Yaşıl dünya naminə həmrəylik ili" münasibətilə gənclərlə görüş keçirilib.

Çıxışlarda qeyd olunub ki, bu gün dünyanı narahat edən problemlərdən biri də iqlim dəyişmələridir. Ölkəmiz də bu problemin təsirindən kənarda qalmayıb. Kənd təsərrüfatı, su resursları, enerji, meşə, turizm, səhiyyə sektoru və sahilyanı zonaları Azərbaycanda iqlim dəyişikliyinə həssasdır.

Sonda gənclərlə mövzu ətrafında, eləcə də gələcəkdə keçiriləcək maarifləndirici tədbirlər, təlimlər haqqında müzakirələr aparılıb.

# Bağçada "Meyvələrin söhbəti"

Quba-Xaçmaz RMİ-nin təşkilatçılığı ilə Quba rayon MKS-nin Mərkəzi Kitabxanasının uşaq şöbəsi tərəfindən Quba şəhər 7 saylı körpələr evi-uşaq bağçasında Məhəmməd Füzulinin 530 illiyi ilə əlaqədar "Meyvələrin söhbəti" əsərindən oxu keçirilib.



Kitabxana əməkdaşları balacalara "Meyvələrin söhbəti"ndən parçalar oxuyublar. Uşaqlar bildikləri şeirlərdən parçalar söyləyiblər. Uşaqların maraq dairəsinə uyğun olaraq müxtəlif nağıl qəhrəmanları haqqında sual-cavab da keçirilib.

**Hazırladı: N.Məmmədli**

# Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı Tədbirlər Planı

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 19 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

| Sıra №-si | Tədbirin adı | İcra müddəti | İcraçı orqanlar |
|---|---|---|---|
| 1. | "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin rəsmi açılışı | 2024-cü il may | Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 2. | İslam Dünyasının Mədəniyyət Forumunun təşkil edilməsi və bu çərçivədə:<br>- Şuşada İslam Əməkdaşlığı Təşkilatının mədəni irsin mühafizəsinə həsr olunmuş beynəlxalq konfransının keçirilməsi;<br>- "İslam dünyasının itirilməkdə olan qeyri-maddi mədəni irs nümunələri" mövzusunda dəyirmi masa və sərginin keçirilməsi;<br>- "İslam Əməkdaşlığı Təşkilatı Ölkələrinin İqtisadiyyatı" kitabının təqdimat mərasiminin təşkili;<br>- "Şuşa - İslam Dünyasının Mədəniyyət paytaxtı 2024" poçt markasının və müvafiq internet resurslarının təqdimatı;<br>- Şuşanın və İslam ölkələrinin mədəni irsini əyani nümayiş etdirmək məqsədilə lentə alınmış, o cümlədən Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin kosmosdan çəkilmiş təsvirlərindən ibarət sərgilərin təşkili | 2024-cü il ərzində | Mədəniyyət Nazirliyi,<br>Xarici İşlər Nazirliyi,<br>Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi,<br>Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi,<br>İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi |
| 3. | İslam ölkələrində "Şuşa günləri"nin keçirilməsi və tədbirdə folklor incəsənət qruplarının, Qarabağ xalçalarının, foto və rəsm əsərlərinin, videoçarxların nümayişi, kitab təqdimatlarının keçirilməsi | 2024-cü il ərzində | Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 4. | İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş qərargahında Şuşaya həsr edilmiş birgə elmi və mədəni tədbirlərin (konfrans, konsert, təqdimat, sərgi, film nümayişi, müsabiqə və s.) təşkili | 2024-cü il ərzində | Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Diasporla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası |
| 5. | İslam ölkələrinin mədəniyyət paytaxtlarının "Şuşa şəbəkəsi"nin yaradılması və ilk görüşünün keçirilməsi | 2024-cü il ərzində | Mədəniyyət Nazirliyi,<br>Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 6. | Mədəni irsin qorunması, İslam mədəniyyəti, habelə Azərbaycanın tarixini və incəsənətini əks etdirən mövzularda beynəlxalq və yerli əhəmiyyətli simpoziumların, elmi-praktiki tədbirlərin və konfransların təşkili | 2024-cü il sentyabr | Azərbaycan Milli Elmlər Akademiyası, Xarici İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 7. | İslam dünyasında turizmin inkişafı mövzusunda beynəlxalq konfransın və "İslam ölkələrinin ortaq süfrəsi" kulinariya festivalının təşkili | 2024-cü il ərzində | Dövlət Turizm Agentliyi,<br>Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 8. | ICESCO-nun "A-Hub Akselerasiya Proqramı"nın (2023-cü il üzrə) böyük finalının Azərbaycanda keçirilməsi | 2024-cü il may-iyun | Mədəniyyət Nazirliyi,<br>Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 9. | Şuşada İslam ölkələrinin rəssamlarının və fotoqraflarının sərgi və düşərgəsinin təşkili | 2024-cü il ərzində | Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 10. | İslam ölkələrinin yaradıcı gəncləri arasında müxtəlif müsabiqələrin, o cümlədən vizual sənət növləri üzrə internet müsabiqəsinin keçirilməsi | 2024-cü il ərzində | Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Gənclər və İdman Nazirliyi |
| 11. | Şuşada İslam ölkələrindən olan gənclərin iştirakı ilə ICESCO simulyasiya sessiyasının keçirilməsi, İslam ölkələrinin gəncləri üçün yay düşərgələrinin təşkili | 2024-cü il ərzində | Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 12. | Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə bağlı kütləvi idman tədbirlərinin keçirilməsi | 2024-cü il ərzində | Gənclər və İdman Nazirliyi,<br>Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 13. | Şuşanın İslam mədəniyyətinə töhfə vermiş tarixi-dini irsi və şəxsiyyətləri haqqında sənədli filmin hazırlanması (müxtəlif dillərdə) | 2024-cü il ərzində | Mədəniyyət Nazirliyi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti |
| 14. | İslam dünyasının aparıcı media nümayəndələrinin Şuşaya səfərinin təşkili | 2024-cü il ərzində | Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Medianın İnkişafı Agentliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |
| 15. | Şuşanın tarixi abidələrini və onun İslam dünyasındakı rolunu özündə əks etdirən təbliğat materiallarının (nəşrlər, albomlar, məqalələr, kitablar, broşürlər, televiziya verilişləri, filmlər və s.) hazırlanması və beynəlxalq səviyyədə yayımlanması | 2024-cü il ərzində | Azərbaycan Milli Elmlər Akademiyası, Xarici İşlər Nazirliyi, Elm və Təhsil Nazirliyi, Mədəniyyət Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi |
| 16. | "Şuşa - İslam dünyasının mədəniyyət paytaxtı 2024" ilinin rəsmi bağlanışı | 2024-cü il dekabr | Mədəniyyət Nazirliyi, Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəliyi, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsi |

# Tank qoşunları generalı – hərb tariximizin Həzi Aslanovu



Lənkəran-Astara RMİ-nin təşkilatçılığı ilə adı iki dəfə Sovet İttifaqı Qəhrəmanı, general-mayor Həzi Aslanovun (1910–1945) anadan olmasının 114-cü ildönümünə həsr edilmiş tədbir keçirilib.

Lənkəran-Astara RMİ-nin rəisi Bəxtiyar Qılıncov, idarənin məsul işçiləri və Lənkəran şəhərində fəaliyyət göstərən mədəniyyət müəssisələrinin rəhbərləri əvvəlcə generalın abidəsini ziyarət edib, önünə tər çiçəklər düzüblər.

Sonra tədbir iştirakçıları Lənkəran şəhərində Həzi Aslanovun Ev-Muzeyinə baş çəkiblər. Muzeyin direktoru Həcər Nəsirova H.Aslanovun Azərbaycan xalqının yetirdiyi görkəmli sərkərdələrdən biri olduğunu qeyd edib. Generalın həyat və döyüş yolu, qəhrəmanlığı haqqında məlumat verilib.

Sonda RMİ-nin rəisi muzeyin xatirə kitabına ürək sözlərini yazıb.

# Tanınmış aktyorun 80 illiyi qeyd edilib



Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli teatr və kino aktyoru, Xalq artisti, Azərbaycan Teatr Xadimləri İttifaqının sədri vəzifələrini icra edən Hacı İsmayılovun 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilib.

Kitabxananın əməkdaşı Gülər Piriyeva bildirib ki, Hacı İsmayılov milli teatr və kino səhnəsində maraqlı və yaddaqalan obrazlarla tamaşaçıların sevgisini qazanıb.

Sonra kitabxananın əməkdaşı Mərdan İsgəndərov Hacı İsmayılovun həyat və yaradıcılığı barədə danışıb. Bildirib ki, Sumqayıt teatrında da tamaşalarda oynayan aktyor 1970-ci ildən Akademik Dram Teatrında səhnə fəaliyyətini davam etdirib. "Azərbaycanfilm" kinostudiyasında ilk dəfə "Ad günü" filmində Mustafa rolunda çəkilib, bu rolla böyük uğur qazanıb. Sənətkar kino və teatrın inkişafında mühüm xidmətlərinə görə dövlət tərəfindən fəxri adlar, orden və medallarla təltif olunub.

# Xizək fristaylının moqul növünün Azərbaycanda inkişafı müzakirə olunub

## "Şahdağ"da yapon mütəxəssislərin ustad dərsləri

Qış idmanının inkişafı və xizək fristaylının moqul növünün Azərbaycanda təbliği məsələləri yanvarın 24-də Dövlət Turizm Agentliyinin (DTA) sədri, Azərbaycan Qış İdman Növləri Federasiyasının prezidenti Fuad Nağıyevlə Yaponiyanın moqul mütəxəssisi Jiro Miyamotonun rəhbərlik etdiyi nümayəndə heyəti arasında keçirilən görüşdə müzakirə olunub.

Azərbaycanda qış idman növlərinin inkişafına xüsusi diqqət ayrıldığını deyən Fuad Nağıyev DTA-nın tabeliyində fəaliyyət göstərən "Şahdağ" Turizm Mərkəzinə Beynəlxalq Xizək Federasiyası tərəfindən dağ xizəyinin "Slalom", "Giqant slalom" və "Super-G" növləri üzrə beynəlxalq yarışların keçirilməsi üçün sertifikat verildiyini diqqətə çatdırıb.

Mərkəzdə moqul yarışlarının təşkili üçün də lazımi infrastrukturun olduğunu deyən Fuad Nağıyev bildirib ki, "Şahdağ" bu formatlı yarışları keçirmək hüququ əldə etmək üçün qarşılıqlı əməkdaşlığa hazırdır.

2023-cü ildə "Şahdağ" Turizm Mərkəzində həm xizək həvəskarları, həm də təlimçilər üçün moqul üzrə ustad dərslərinin keçirildiyini bildirən Jiro Miyamoto Azərbaycanda bu idman növünün tanıdılması, xizəkçilər arasında marağın artırılması istiqamətində dəstək göstərməyə hazır olduqlarını deyib.

Xizək fristaylının moqul növü 1988-ci ildə (Kalqari, Kanada) Qış Olimpiya Oyunlarına rəsmi idman növü kimi daxil edilib. Olimpiada proqramında ekstremal idman növlərindən sayılan fristaylın bu növündən başqa



akrobatika, ski-cross, xafpayp, sloupestayl və big air kimi növləri də var.

Yaponiyanın Azərbaycandakı Səfirliyinin dəstəyi ilə ötən il "Şahdağ" Turizm Mərkəzində xizək fristaylının moqul növü üzrə ilk ustad dərsləri keçirilib. Yanvarın 27-28-də "Şahdağ"da səfirliyin dəstəyi ilə bu növ üzrə növbəti ustad dərsi təşkil ediləcək.

# “Bir səfərin izi ilə...”

Ümummilli lider Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya rəsmi səfərinə həsr edilmiş filmin təqdimatı olub.




Nizami Kino Mərkəzində təqdimatı keçirilən “Bir səfərin izi ilə – Yaponiya” sənədli filmi bu silsilədən ilk ekran əsəridir.

Filmin ideya müəllifi tanınmış səyyah və jurnalist Azər Qəribdir. Yaradıcı heyətə redaktor Ayaz Mirzəyev, prodüser Əsgər Qəribzadə, operator Əli Əliyev və Violetta Matsue, montaj mütəxəssisi Elmar Tarıyeloğlu daxildir.

Azər Qərib bildirib ki, film Heydər Əliyevin səfərinin qeyri-rəsmi tərəflərini əks etdirir. Çəkilişlər Tokio və Kioto şəhərlərində aparılıb. Tamaşaçı səfərin qeyri-rəsmi anlarına nəzər salmaqla Yaponiyanın bu iki tarixi şəhərində səyahətə çıxır.

Müəllif qeyd edib ki, layihə çərçivəsində Heydər Əliyevin digər səfərləri barədə də oxşar mövzuda filmlər lentə alınacaq. Layihə “Azərbaycan Hava Yolları” QSC-nin baş sponsorluğu ilə həyata keçirilir.

# “Rəngkarlıq və teatr bu gün”

## Rusiyalı və gürcüstanlı ekspertlərin iştirakı ilə müzakirə

YARAT Müasir İncəsənət Məkanının XX-XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində ”Rəngkarlıq və teatr bu gün” mövzusunda müzakirə keçirilib.

Tədbirdə ekspert qismində Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, rusiyalı sənətşünas, incəsənət tarixçisi Leonid Bajanov, gürcüstanlı tanınmış teatr rejissoru, “Fabrika” teatrının yaradıcısı Robert Sturua iştirak ediblər.




Tədbirin moderatoru qismində vizual sənət nəzəriyyəçisi Elçin Şamilli çıxış edib. O, teatr və rəngkarlıqda absurd, həyat faciəsi mövzusunu rəssam və rejissorun gözü ilə təsvir edib.

Müzakirə zamanı müasir incəsənətdə rəngkarlıq və teatrın vəziyyətindən danışılıb. Ekspertlər tamaşaçıların suallarını cavablandırıblar.

# Ulu öndərin xatirəsinə ithaf

## “Təsviri sənətdə Heydər Əliyev obrazı” kitabı haqqında düşüncələr

Ulu öndər Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin qurucusudur. Bu məlum həqiqət özünü yüksəlişimizin bütün sahələrində daim göstərməkdədir. Ulu öndərin layiqli davamçısı Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasət günümüzün reallığına çevrilmiş bu inkişafı şərtləndirir. Azərbaycanın öz ərazisi üzərində suverenliyini tam bərpa etməsi bunun parlaq təzahürüdür. Bütün bunların əsasında isə Heydər Əliyevin böyük uzaqgörənliklə təməlini qoyduğu müdrik dövlətçilik siyasəti dayanır.

Təsadüfi deyil ki, elm və sənət adamları, mədəniyyət xadimləri Heydər Əliyevin şəxsiyyətini daim öyrənir, bu böyük vətən övladının ədəbi və bədii obrazını yaradır, onu dərindən tədqiq edirlər. Yola saldığımız 2023-cü ildə AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru Ərtegin Salamzadənin və institutun elmi işlər üzrə direktor müavini Xəzər Zeynalovun birlikdə yazdıqları “The image of Heydar Aliyev in fine art” (“Təsviri sənətdə Heydər Əliyev obrazı”) kitabı bu sıradan olan dəyərli tədqiqat əsərlərindən biridir. Kitabda Ulu öndər Heydər Əliyevin Azərbaycan və xarici rəssamlar tərəfindən yaradılmış rəngkarlıq və qrafik portretləri, monumental və dəzgah heykəlləri, dekorativ-tətbiqi sənətdəki obrazları toplanmış və təhlil edilmişdir.

Kitabın ön sözünün müəllifi AMEA-nın prezidenti akademik, millət vəkili İsa Həbibbəyli, elmi redaktoru ustad sənətkar, heykəltaraşlıq sənətimizin canlı əfsanəsi, akademik Ömər Eldarovdur. Kitaba AMEA-nın müxbir üzvü professor Rəna Məmmədova və Rusiya Rəssamlıq Akademiyasının müxbir üzvü, professor, RF-nin Əməkdar rəssamı Leyla Xasyanova rəy vermişlər.




Hələ 2019-cu ildə müəlliflər kitabı Azərbaycan və rus dillərində hazırlayaraq onu Heydər Əliyevin respublikada siyasi hakimiyyətə gəlməsinin 50 illiyinə həsr etmişdilər. Aradan keçən müddət ərsində müəlliflər Heydər Əliyevin rəssamlar tərəfindən yaradılmış yeni portretlərini toplamış, tədqiqatı genişləndirmiş və onu nəfis şəkildə 2023-cü ildə – Ulu öndərin 100 illiyi münasibətilə ingilis dilində nəşr etdirmişlər. Kitabın ingilis dilində olması mühüm prinsipial şərtdir. Bu, əsərin oxucu dairəsini genişləndirərək dünyanın istənilən yerində onunla tanışlıq imkanı yaradır, dahi azərbaycanlının bədii obrazı haqqında planetimizin sakinlərinə dəqiq məlumatlar çatdırır. Əlbəttə, bu cəhət hazırkı nəşrin vacib xüsusiyyətlərindən biridir.

Mən hər iki müəllifin kitab üzərində necə diqqətlə, uzun müddət çalışmasının, gərgin iş aparmasının şahidiyəm. Bizim aramızda səmimi ünsiyyət, əməkdaşlıq münasibətləri mövcuddur və iş prosesində onlar mənə müraciət edərək bu və ya digər əsər haqqında məlumatlar toplayırdılar. Buna görə də kitabın ciddi zehni əməyin bəhrəsi olması, buradakı materialların dürüstlüyü və əhəmiyyəti barədə əminliklə danışa bilərəm. Eşidəndə ki, sözügedən əsərin Azərbaycan Respublikasının Dövlət Mükafatına təqdim olunması təşəbbüsü irəli sürülüb, düzü, çox məmnun oldum. Çünki, deyildiyi kimi, kitabla tanış idim və onun necə dəyərli olduğunu bilirdim.

Kitab giriş, üç fəsil, nəticə və ədəbiyyatdan ibarətdir. Kitabdakı çoxlu sayda bədii əsər fotoları da təhlilə cəlb edilən nümunələr barədə oxucuda aydın vizual təsəvvür yaradır.

Girişdə tədqiqatın xarakteri barədə məlumat verilmiş, onun məqsəd və vəzifələri diqqətə çatdırılmışdır.

Birinci fəsildə Heydər Əliyevin rəngkarlıq və qrafikada yaradılmış bədii obrazları təhlilə cəlb edilmişdir. Qeyd olunduğu kimi, həm Azərbaycan, həm də xarici ölkə rəssamlarının bu mövzuda çoxlu sayda portret və tematik tabloları vardır. Ulu öndərin Tahir Salahov, Oqtay Sadıqzadə, Arif Hüseynov, Oleq İbrahimov, Tariyel Əhmədov, Sakit Məmmədov, Rafael Abbasov, Hüseynqulu Əliyev, Ülviyyə Həmzəyeva, İlham Mirzəyev, Eldar Zeynalov, Fikrət Babayev, Günay Mehdizadə, rus rəssamı Nikas Safronov, türk rəssamı Tamer Tuğrul, Vyetnam rəssamı Van Duonq Thanq və başqaları tərəfindən yaradılmış obrazları kitabda öz əhatəli bədii təhlilini tapmışdır. Qeyd edilmişdir ki, bu əsərlərdə Heydər Əliyevin nəcib, insani siması onun dövlət rəhbərinə xas olan möhkəm iradəsi, müdrik siyasətçi keyfiyyətləri ilə qarşılıqlı surətdə əlaqələndirilmişdir.

İkinci fəsildə Heydər Əliyevin heykəllərindən bəhs olunur. Müəlliflər qeyd edir ki, bu əsərlər müasir Azərbaycan və dünya heykəltaraşlığında yeni səhifə açmışdır. Ömər Eldarov, Natiq Əliyev, Fuad Salayev, Salxab Məmmədov, Şərif Şərifov, Cavanşir Dadaşov, rus heykəltaraşları Salavat Şerbakov, Mixail Nogin, Yan Neyman, əslən Bakıdan olan ABŞ heykəltaraşı Sergey Eylanbekov və başqaları Heydər Əliyevin zəngin plastikaya, yüksək dinamikaya malik, tamaşaçıda böyük təəssürat yaradan obrazlarını yaratmışlar.

Kitabın üçüncü fəslində Heydər Əliyevin dekorativ-tətbiqi sənətdə yaradılmış obrazlarından danışılır ki, burada xalça sənəti, təbii ki, daha üstün təsir bağışlayır. Bu fəsildə Azərbaycanın mahir xalça ustaları – Kamil Əliyev, Eldar Mikayılzadə, Tahir Məcidov və başqalarının əsərlərindən söz açılır. Qeyd olunur ki, Ulu öndərin obrazının xalça üzərində toxunması bu qədim sənətin yeni bədii-estetik keyfiyyətlər qazanmasına yardım edir.

Üçüncü fəsildə, həmçinin dekorativ-tətbiqi sənətin digər növlərində hazırlanmış bədii sənətkarlıq nümunələrindən bəhs olunur. Qocaman sənətkar Məmməd İbrahimovun bədii metal, minasazlıq texnikasında yaratdığı “Mən fəxr edirəm ki, azərbaycanlıyam!” miniatür kompozisiyası, Ədalət Elmanın Heydər Əliyevin portretini profildən əks etdirən daş qabartması buna misal ola bilər. Ulu öndərin güllərdən, fleş-mob texnikasında düzəldilmiş portretləri qeyri-adi görünüşü ilə diqqəti cəlb edir və yaddaşlara həkk olunur.

Nəticədə tədqiqatın əsas müddəaları yekunlaşdırılır.

Sözügedən kitab təsviri sənətdə Heydər Əliyev obrazına həsr edilmiş yeganə irihəcmli araşdırmadır. Heydər Əliyevin 100 illiyi münasibətilə nəşr olunmuş belə bir araşdırmanın mədəni və ictimai həyatımızda böyük əhəmiyyətə malik olması şübhəsizdir. Ulu öndərin fərqli bədii obrazlarının, onun insani keyfiyyətlərinin yeni-yeni çalarlarının məntiqi təhlillər vasitəsilə üzə çıxarılması, əlbəttə ki, həm sənətşünaslıq elmi, həm də təsviri sənət baxımından çox qiymətlidir.

**Ağaəli İbrahimov**
**Xalq rəssamı, professor,**
**Azərbaycan Rəssamlar**
**İttifaqının sədr müavini**

# “Sehrli xalat”ın Rəşidi dünyadan köçüb

Azərbaycan tamaşaçılarının ötən əsrin 60-cı illərində çəkilmiş filmlərdən yaxşı tanıdığı Azər Qurbanov otuz il əvvəl mühacirət etdiyi Amerikada, Nyu-Cersi ştatında 69 yaşında vəfat edib.





Azər Qurbanov 1955-ci ildə Balakən rayonunda anadan olub. Bakıda 225 saylı orta məktəbdə təhsil alıb. Kiçik yaşlarından musiqiyə maraq göstərib. Anası Xurşid Qurbanova Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının aparıcı solistlərindən idi. O, anasının təkidi ilə kino sahəsinə bağlanır. Hələ iki yaşında ikən onu “Bir məhəllədən iki nəfər” (1957) filmində çəkmişdilər.

Görkəmli rejissor Əlisəttar Atakişiyev 1964-cü ildə lentə aldığı “Sehrli xalat” filminin siması, milyonlarla tamaşaçının, xüsusilə, uşaq və yeniyetmələrin sevimlisinə çevirən Rəşid obrazında onu ekranlara gətirmişdi.

Azər Qurbanov daha sonra “Əcnəbi qız” (1965), “Bizim oynadığımız dənizdə” (1967), ilk sovet-yuqoslav birgə filmi olan “Mavi quş, yolun açıq olsun” (1967) filmlərində rol alıb.

Filmlərdə yaratdığı obrazlarla parlasa da, musiqi sahəsində ali təhsil almaq arzusunu da gerçəkləşdirib. Üzeyir Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının (indiki BMA) Vokal şöbəsindən məzun olub.

Azər Qurbanov 1992-ci ildən ABŞ-nin Nyu-Cersi ştatının Şort-Hills şəhərciyində yaşayıb, fəaliyyət göstərib. O, bir neçə il əvvəl yerli mətbuata müsahibəsində demişdi: “Qayıtmağı çox istərdim, amma indiki yaşımda nəyisə dəyişmək artıq gecdir. Hərçənd ABŞ-də yaxşı yaşayıram, lakin doğma Bakı üçün darıxıram, uşaqlıq illərimi həyatımın ən parlaq səhifəsi hesab edirəm”.

Allah rəhmət eləsin.

Heydər Əliyev – 101

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçmələrin dərcini davam etdiririk.

## İllərin xronikasından (95)

### 2001-ci il 2 fevral

Prezident Heydər Əliyev Azərbaycan Gəncləri Günü münasibətilə gənclərlə görüşdə nitq söyləyib.

### 2001-ci il 7 mart

Beynəlxalq Qadınlar Gününə həsr olunmuş tədbirdə iştirak edib.

### 2001-ci il 21 mart

Novruz bayramı münasibətilə Bakıda keçirilən ümumxalq şənliyində nitq söyləyib. Şənlikdə iştirak edən mədəniyyət, ədəbiyyat, incəsənət xadimləri ilə səmimi şəkildə görüşüb, xatirə şəkilləri çəkdirib.

### 2001-ci il 27 mart

31 mart – Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı Azərbaycan xalqına müraciət edib. Müraciətdən sitat: *“...Azərbaycanlılara qarşı müntəzəm olaraq yeridilən bədnam soyqırımı siyasətinin yüz illərlə ölçülən uzun tarixi vardır. XIX əsrin əvvəllərindən başlayaraq, ardıcıl olaraq tarixi Azərbaycan torpaqlarında ermənilər kütləvi şəkildə məskunlaşdırılmağa başlanmış, Qafqazın cənubunda Ermənistan dövlətinin yaradılması, azərbaycanlıların öz qədim torpaqlarından, ata-baba yurdlarından qovulması, onların deportasiyası prosesi məqsədyönlü şəkildə həyata keçirilmişdir... Bu gün dövlətimiz və xalqımız qarşısında azərbaycanlılara qarşı əsrlər boyu aparılan soyqırımı siyasəti haqqında həqiqətləri bütün dünyaya yaymaq, beynəlxalq ictimai fikirdə ədalətin bərqərar olmasına nail olmaq, soyqırımı siyasətinin ağır nəticələrini aradan qaldırmaq və bir daha təkrar olunmaması üçün ciddi tədbirlər görmək vəzifəsi durur. Bu hadisələri, onların dərslərini unutmağa bizim haqqımız yoxdur...”.*

### 2001-ci il 19 aprel

Azərbaycan teatr sənətinin görkəmli nümayəndəsi, Xalq artisti Nəsibə Zeynalovanı 85 illik yubileyi münasibətilə təbrik edib.

*“Altmış ildən artıq bir dövrü əhatə edən yaradıcılığınız dövlət tərəfindən dəfələrlə yüksək mükafatlara layiq görülmüşdür. Sənətə vurğunluq nümunəsi olan səhnə fəaliyyətinizlə qazandığınız başqa bir mükafat da vardır ki, onların hamısından dəyərli, hamısından ali və əzizdir. Bu da mədəniyyətinin və incəsənətinin çiçəklənməsi yolunda həyatınızı fəda etdiyiniz qədirbilən Azərbaycan xalqının əməyinizə, şəxsiyyətinizə bəslədiyi dərin məhəbbət və ehtiramdır”*, – deyə təbrik məktubunda vurğulanırdı.

### 2001-ci il 24 aprel

Türkdilli ölkələrin dövlət başçılarının İstanbulda keçirilən VII zirvə görüşündə nitq söyləyib.

*“...Müstəqillik qazandıqdan sonra xalqlarımız və ölkələrimiz arasında çoxtərəfli əməkdaşlıq, birinci növbədə, ortaq mədəniyyətimizin, adət-ənənələrimizin, tariximizin, milli mənəvi dəyərlərimizin bərpası baxımından bir sıra müsbət nəticələr vermiş və gələcək üçün aydın perspektivlər açmışdır... Bizim zirvə görüşlərimiz nəticəsində bir sıra nəcib ənənələrin əsası qoyulmuşdur. Onların sırasında dahi şəxsiyyətlərimizin, milli mədəniyyətlərimizin korifeylərinin, bəşər sivilizasiyasının inciləri möhtəşəm eposlarımızın əlamətdar ildönümlərini, xalqlarımızın həyatındakı mühüm tarixi hadisələri birlikdə bayram etməyimiz əhəmiyyətli yer tutur...”.*

### 2001-ci il 28 aprel

Rəşid Behbudov adına Mahnı Teatrında Zərifə xanım Əliyevanın xatirəsinə həsr olunmuş ədəbi-bədii gecədə çıxış edib.

### 2001-ci il 26 may

Respublika Sarayında (indiki Heydər Əliyev Sarayı) 28 May – Respublika Gününə (2021-ci ildən Müstəqillik Günü – red.) həsr olunmuş mərasimdə nitq söyləyib.

### 2001-ci il 29 may

Prezident iqamətgahında tələbələrin, şagirdlərin və idmançıların bir qrupuna ilk şəxsiyyət vəsiqələrinin təqdimetmə mərasimində nitq söyləyib.

*“...Hər bir Azərbaycan vətəndaşı fəxr etməlidir ki, onun müstəqil dövləti var, onun dövləti dünyada tanınıb və öz layiqli yerini tutur, onun dövləti Azərbaycan xalqını, ölkəmizin bütün vətəndaşlarını gələcəyə uğurla aparır.*

*Mən dəfələrlə demişəm ki, Azərbaycanın gələcəyi gənclərə məxsusdur. Bunu bu gün də demək istəyirəm. Müstəqil Azərbaycanın atributlarından biri olan şəxsiyyət vəsiqəsinin məhz sizə – gənclərə təqdim olunması onu göstərir ki, həqiqətən, bizim ümidimiz, gələcəyimiz gənclərdir, sizsiniz... Azərbaycan vətənpərvərliyi, müstəqil Azərbaycana sədaqət – bunlar hər bir gəncin ümdə vəzifəsidir...”.*

### 2001-ci il 5 iyun

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə Xuraman Qasımovanın “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında fərman imzalayıb. Xalq artistini 55 illik yubileyi münasibətilə təbrik edib.

### 2001-ci il 10 iyun

Respublika Sarayında “Bakılı oğlanlar” şən və hazırcavablar klubunun növbəti konsertinə baxıb. Konsertdən sonra səhnə arxasında komandanın üzvləri ilə görüşüb.

*“...Təbiidir ki, sizin bu çıxışlarınız daha çox yumor xarakteri daşıyır... Yumor insanlar üçün həmişə mənəvi bir qida olubdur. İkinci tərəfdən də ayrı-ayrı qüsurların tənqididir. Əgər keçmişə nəzər salsaq, məsələn, bizim böyük mütəfəkkirimiz Cəlil Məmmədquluzadə “Molla Nəsrəddin” jurnalında, yaxud öz əsərlərində o dövrdə cəmiyyətin nöqsanlarını, xalqımızın bəzi məsələlərdə geri qalmasını çox yumoristik şəkildə əks etdirirdi. Həmin jurnalın nömrələrinə baxanda bəzi adamlar belə qəbul edirlər ki, bu sözlər, şəkillər sadəcə, insanı güldürməkdən ötrüdür. Amma orada iki məna var: həm insanı güldürür, həm də cəmiyyətə, insana başa salır ki, bu nöqsanları aradan qaldırmaq lazımdır...”.*

**Hazırladı: V.Orxan**

***(davamı var)***

# Tanınmış alim Paşa Kərimov vəfat edib

**Ədəbiyyat tariximizin görkəmli tədqiqatçısı, mətnşünas, Azərbaycan Yazıçılar Birliyinin üzvü, AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun direktor müavini filologiya elmləri doktoru, professor Paşa Kərimov 25 yanvar 2024-cü il tarixində, ömrünün 65-ci ilində vəfat edib.**



Paşa Kərimov 10 fevral 1959-cu ildə Bakı şəhərində görkəmli şair Əli Kərimin ailəsində anadan olub. Paytaxtımızdakı 132 nömrəli orta məktəbi bitirib. Bakı Dövlət Universitetinin Filologiya fakültəsində təhsil alıb.

1982-ci ildə AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda əmək fəaliyyətinə başlayan Paşa Kərimov 1999 – 2003-cü illərdə institutun elmi katibi, 2003 – 2011-ci illərdə elmi işlər üzrə direktor müavini vəzifələrində çalışıb. 2011 – 2014-cü illərdə institutun direktoru vəzifəsini icra edib. 2014-cü ildən institutun direktor müavini vəzifəsində fəaliyyət göstərib.

Paşa Kərimov 1991-ci ildə "Əlican Qövsi Təbrizinin "Divan"ının tekstoloji tədqiqi və elmi-tənqidi mətni" mövzusunda namizədlik (fəlsəfə doktorluğu), 2012-ci ildə isə "XVII əsr anadilli Azərbaycan lirikası" mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib.

Alim klassik ədəbi abidələrimizin filoloji və tekstoloji araşdırılması və nəşrə hazırlanması işi ilə məşğul olub. İlk dəfə olaraq XVI – XVII əsrlər Azərbaycan şairlərindən Yusif bəy Ustaclu, Qövsi Təbrizi, Mürtəzaqulu xan Şamlu, Vəhid Qəzvini, Sadiq bəy Əfşar, Təsir Təbrizi və başqalarının Azərbaycan dilində divanlarını, XIX əsr şairləri Mirzə İsmayıl Qasir və Mirzə Baxış Nadimin şeirlərini və s. çap etdirib.

P.Kərimov Volters İncəsənət Muzeyində (ABŞ) saxlanılan XV əsr Osmanlı şairi Ətainin Nizami Gəncəvinin təsiri ilə türkcə yazdığı "Miniatürlü xəmsə", Azərbaycan şairi Əhməd Şövqi Təbrizinin (XV – XVI) "Divan"ının Türkiyə Milli Kitabxanasında saxlanılan nüsxəsi, Şah İsmayıl Xətainin nəvəsi İbrahim Cahinin "Divan"ı, Tehranın Mulis Kitabxanasından İmadəddin Nəsiminin anadilli "Divan"ı, Fransa Milli Kitabxanasından "Əsli və Kərəm" ("Hekayəti-Kərəm" adı ilə) və "Aşıq Qərib" ("Aşıq Qərib və Şahsənəm xanım" adı ilə) dastanlarının XIX əsrdə ərəb qrafikası ilə yazıya alınmış variantları və digər əsərlərin aşkarlanaraq surətlərinin Əlyazmalar İnstitutuna gətirilməsinə nail olub.

Alim Türkiyə, Özbəkistan, Türkmənistan, İran, Əfqanıstan, Pakistan və digər ölkələrdə beynəlxalq konfranslarda Azərbaycan elmini layiqincə təmsil edib.

Dövlət başçısının müvafiq sərəncamı ilə 2015-ci ildə "Tərəqqi" medalı ilə təltif olunub. O, eyni zamanda bir sıra beynəlxalq mükafatlara layiq görülüb.

P.Kərimov Əlyazmalar İnstitutu nəzdindəki "Dinşünaslıq" üzrə birdəfəlik ixtisaslaşdırılmış Dissertasiya şurasının sədri, UNESCO-nun "Dünya yaddaşı proqramı" üzrə Azərbaycan milli komitəsinin sədr müavini idi.

Allah rəhmət eləsin.

# Seyid Şuşinskidən sənət xeyir-duası almışdı...

**İslam Rzayev – 90**

**Qarabağ xanəndəlik məktəbinin görkəmli nümayəndələrindən biri də Xalq artisti İslam Rzayev olub. O, sələflərinin sənət ənənələrini lazımınca yaşadıb, muğamın klassik ifa tərzinin qorunub saxlanılması üçün böyük səylər göstərib. Sənətkar eyni zamanda pedaqoji fəaliyyət göstərib, yeni xanəndələr nəslinin yetişdirilməsinə öz töhfəsini verib. Muğam ustadını anadan olmasının 90 illiyi münasibətilə yada saldıq.**

İslam Tapdıq oğlu Rzayev 11 noyabr 1934-cü ildə Füzuli rayonunun Sərdarlı kəndində anandan olub. Orta məktəbi başa vurduqdan sonra 1951-1956-cı illərdə Asəf Zeynallı adına Musiqi Texnikumunda oxuyur. Burada ustad xanəndə Seyid Şuşinskinin sinfində muğam ifaçılığının sirlərinə dərindən yiyələnir. 1976-cı ildə Azərbaycan Dövlət İncəsənət İnstitutundan (indiki ADMİU) məzun olur.

Araşdırmalarda qeyd edilir ki, onun bir müğənni kimi formalaşmasında görkəmli sənətkarlar Zülfü Adıgözəlov və Həqiqət Rzayevanın da böyük təsiri olub. Erkən çağlardan ifaçılıq sənətinə başlayan müğənni 1958-ci ildən Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında solist olaraq fəaliyyət göstərib. Ölkəmizdə muğam sənətinin yaşadılması və təbliğinə xüsusi diqqət yetirən İslam Rzayev bu istiqamətdə yorulmadan çalışıb. 1988-ci ildə rejissor Arif Qazıyevlə birlikdə "Muğam teatrı"nı təşkil etmək qərarına gəlirlər. İlk olaraq istedadlı xanəndələrin, mahir ifaçıların toplanması, muğamlarımıza uyğun səhnə forması və bütün bunların uyğun şəkildə teatrlaşdırılmış üslubda tamaşaçılara təqdim olunması üçün iş aparılır. Məşqlər "Şur" muğamının hazırlanması ilə başlanır. Dəsgahın ifasına tanınmış xanəndələrdən Zeynəb Xanlarova, Alim Qasımov, Arif Babayev, Qədir Rüstəmov və başqaları cəlb olunur. "Muğam teatrı" yeni ifaçıların meydana çıxmasında rol oynayır, gənclərin bu sənətə istiqamətlənməsinə öz təsirini göstərir. İ.Rzayev ömrünün sonunadək bu teatrın bədii rəhbəri olur.

İ.Rzayevin sənətə gəlişində, bir xanəndə kimi gələcək taleyinin müəyyənləşməsində S.Şuşinskinin mühüm rolu olub. Xanəndə bu barədə xatirələr kitabında yazır: "...Bir gün bibim məni Füzuli şəhərinə apardı. S.Şuşinski dəhlizdə oturub qəlyan çəkirdi. Qabağında isə çay vardı. O bizimlə çox mehriban hal-əhval tutdu. Sonra üzünü mənə tutaraq dedi: "Oğlum, çayını iç". Sonra başa düşdüm ki, məni oxudacaqmış. Ona görə də boğazımın yaşlanmasını istəyib. Bibim qabaqcadan ona deyibmiş. Deyirlər, İslamın yaxşı səsi var. Bəlkə bunu bir yoxlayasan. S.Şuşinski mənə "bala, nəyi bilirsən onu oxu" dedi. Xəyalıma ilk gələn "Tel nazik" mahnısı oldu. Oxudum, etiraz etdi. Bildirdi ki, bura çox aşağıdır, bir az zildən oxu. Özü də zildən bir zəngulə vurdu. Səsini o dəqiqə tutdum. Bir bənd "Tel nazik" oxudum. Başı ilə bəyəndiyini bildirdi və "daha bəsdir" dedi: – Bir haldakı tutduğum notu dərhal məndən aldın, kifayətdir". Sonra dedi ki, bu uşağın yaxşı səsi və musiqi qavrayışı var. Qəbul etdirərəm mənim sinfimə".

İ.Rzayevin genişdiapazonlu, məlahətli və zəngin çalarlı ecazkar səs tembri vardı. Dinləyicinin daxili aləminə nüfuz edərək onda güclü emosional təsir yaratmaq bacarığı, incə



musiqi duyumu onun sənətini fərqləndirən xüsusiyyətlər idi. Daim muğam qaynaqlarından bəhrələnən, lakin öz dəst-xətti ilə seçilən xanəndənin zəngin repertuarlı konsert proqramları sənətsevərlər tərəfindən maraqla qarşılanırdı. Oxuduğu "Çahargah", "Bayatı-kürd", "Mahur-hindi", "Rast" muğam dəsgahları AzTV-nin fonduna daxil edilib.

İ.Rzayev həm də bəstəkar kimi tanınıb. Onun bəstələdiyi "Gəl, inad etmə", "Dağlar başı", "Almadərən" mahnıları radio dalğalarında və televiziya ekranlarında təkrar-təkrar səsləndirilib, dinləyicilərin qəlbinə təravət bəxş edib.

1968-ci ildə Azərbaycan Konsert Birliyi ("Azkonsert") yaradılır. O, böyük maraq və inamla birliyin nəzdində ansambl təşkil edir. Ansambla topladığı istedadlı gənclər – B.Əşrəfov, M.Kazımov, F.Cəfərov, Z.Abdullayeva, Z.Məmmədsalahova, H.Rəhimov, X.Məmmədova və başqaları ilə sənətdə əldə etdiyi bilik və bacarığını bölüşür. Özünün etiraf etdiyinə görə, bu gənclərin bir ifaçı kimi tanınmasında xüsusi zəhmət çəkir. Daima gənc müğənnilərə sənətdə püxtələşməsi və tanınması üçün yardımçı olur.

İ.Rzayev məlahətli səsi, bənzərsiz ifası ilə Azərbaycan ifaçılıq sənətində təkcə xanəndə kimi deyil, həm də təkrarolunmaz mahnı ifaçısı kimi tanınıb. S.Rüstəmov, T.Quliyev, C.Cahangirov, S.Ələsgərov, H.Xanməmmədov, R.Mirişli, A.Bəbirov, Ş.Axundova və digər bəstəkarların mahnıları onun repertuarını bəzəyib. Xanəndə 80-ə yaxın ölkədə Azərbaycan musiqi mədəniyyətini böyük uğurla təmsil edib.

Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətləri yüksək qiymətləndirilən görkəmli İ.Rzayev 1989-cu ildə "Xalq artisti" fəxri adına layiq görülüb. 2004-cü ildə isə "Şöhrət" ordeni ilə təltif olunub.

Qədim tarixi köklərə malik Azərbaycan xanəndəlik məktəbinin inkişafına töhfələr verən İslam Rzayev 26 yanvar 2008-ci ildə, ömrünün 74-cü ilində Bakıda vəfat edib.

**Savalan Fərəcov**

# Aşıqlar Birliyinin yeni layihəsi

## İki cilddə dastan antologiyası hazırlanır

Son illərdə aşıq sənətinə və ədəbiyyatına dair bir sıra nəşrlər ərsəyə gətirən Azərbaycan Aşıqlar Birliyində (AAB) bu dəfə dastanlara müraciət etmək qərara alınıb.

Bu barədə məlumat verən AAB-nin katibi Əməkdar mədəniyyət işçisi Musa Nəbioğlu bildirib ki, iki cilddə çap olunması nəzərdə tutulan antologiyada aşıqlarımızın repertuarında bu gün də mühüm yer tutan dastanlara yer veriləcək.

Günümüzün ustad aşıqlarından Ələddin Göyçəli, Fətulla Göyçəli, Ağamurad Şirvanlı, Arif Əsgərov, Altay Məmmədli, Qələndər Zeynalov, Nazim Quliyev, Nəbi Nağıyev, Elman Talıstanlı, Məmməd Bozalqanlı, Nizami Şirinov, eləcə də İxtiyar Qocayev, Elməddin Məmmədli, Şəhriyar Qaraxanlı, Şöhrət Kərimov, Elbrus Hüseynov, Anar Kərimov, Anar Qurbanov və digərlərinin repertuarından "Abbas və Gülgəz", "Qurbani", "Tahir və Zöhrə", "Leyli və Məcnun", "Aşıq Qərib", "Valeh və Zərnigar", "Alıxan və Pəri", "Şah İsmayıl və Gülzar", "Yəhya bəy Dilqəm", "Aşıq Hüseyn və Reyhan xanım" və digər dastanların yenidən sənətsevərlərə və geniş oxucu kütləsinə çatdırılması nəzərdə tutulur.

Toplunun ilk cildi bu ilin birinci yarısında ictimaiyyətə təqdim olunacaq.

# "Qəlb süzgəcindən keçməyən söz tamaşaçıya təsir edə bilməz"

## Ağalar Bayramov: "Tanımadığım, üzünü görmədiyim şairlərin də əsərlərini sevə-sevə qiraət etmişəm"

**Bədii qiraətçilər ədəbi əsərləri tamaşaçıya, dinləyiciyə daha təsirli şəkildə çatdıranlardır. Onlar bədii mətni müəlliflərindən daha yaxşı təqdim edirlər. Yəni qiraətçilər səsləndirdikləri əsərlərin ömrünə ömür qatırlar.**

Müsahibimiz tanınmış bədii qiraət ustası, bu günlərdə 70 yaşını qeyd edən Əməkdar artist Ağalar Bayramovdur. O, sözün qüdrətinə çox inanır. Bəlkə də bədii qiraət sahəsini seçməsi də elə bu inamla bağlıdır: "Sözün gücü, həqiqətən də, böyükdür. Amma burda bir məsələ var. Baxır həmin sözü kim yazır, kim deyir. Özünü öymək olmasın, mən heç vaxt elə-belə söz demirəm. Vətənə sevgi, qələbəyə inam mənim təkcə dilimdə yox, həm də ürəyimdədir. Bədii qiraət özündə bir neçə sənəti birləşdirən sahədir. Qiraət ustası gözəl səs və səlis diksiyadan əlavə, incə duyuma, aktyorluq qabiliyyətinə və yüksək zövqə malik olmalı, sözün qüvvətini hiss etməyi bacarmalıdır. Bu sənətin Kazım Ziya, Müxlis Cənizadə, Soltan Nəcəfov, Aydın Qaradağlı, Həsən Əbluc, Mikayıl Mirzə, Əminə Yusifqizi kimi ustaları olub. Bu gün də bu sənətin etibarlı əllərdə olduğunu deyə bilərik".

Ağalar Bayramov 16 yanvar 1954-cü ildə Ucar rayonunun Boyat kəndində dünyaya gəlib. Bakı Mədəni-Maarif Texnikumunda, sonra indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində təhsil alıb. Hazırda ADMİU-da dərs deyir. 2002-ci ildə "Əməkdar artist" fəxri adına layiq görülüb.

*– Ağalar müəllim, televiziya ekranında bədii qiraət etdiyiniz ilk günü necə xatırlayırsınız?*

– 1983-cü il idi. O vaxt Azərbaycan Televiziyasında xalq yaradıcılığından bəhs edən çox populyar "Ocaq" verilişi yayımlanırdı. Verilişin rejissoru Əmirhüseyn Məcidov bir gün məni çağırıb dedi ki, sənin gözəl səsin var, sabah televiziyaya gəl. Getdim, mənə üzündən bir əfsanə mətni oxutdu və beləliklə, televiziyaya yolum açıldı.

*– Sizi bu sənətə gətirən qüvvə nə idi?*

– Bu, sifarişlə olmur. Bir də gözümü açdım ki, bu sənətdəyəm.



Çünki gözümü açıb nənəmin bayatılarını eşitmişəm, nənəmin mənə oxutdurduğu dastanlarla böyümüşəm, folklorumuza aşiq olmuşam. Məni sənətə gətirən bayatılar, sanamalar olub. Məsələn, nənəmdən yadımda qalan bu misraları deyim:

*Yağış yağır güldür-güldür,*
*Mənim yarım hamıdan hündür.*
*Mən sevmişəm dağ oğlanı,*
*Sinəsi yaylaq oğlanı...*

Fikir verirsiniz, sətirlərə, sanki bir mənzərədir. Məni həm də soykökə bağlılıq gətirib bu sənətə...

*– Şeir, sənət, ədəbiyyat – bunlar sizin üçün nədir?*

– Bunlar mənim üçün sanki bir dağ havasıdır. Onunla nəfəs alıram. Ədəbiyyatı sevməyən insanın həyata baxışını təsəvvür edə bilmirəm. Böyük Sabirin "Hophopnamə"sindən xəbəri olmayan nə bilər ki, həyat nədir, sənət nədir.

*– Bədii qiraət sənətinin incəlikləri nələrdir?*

– Bədii qiraət və aktyor sənətinin mahiyyəti birdir. Hər ikisində yaşantı var. Gərək sözlə yaşayasan. Üzeyir bəy deyirdi ki, sənətin iki qolu var; ya ürəkdən ağlatmalı, ya da ürəkdən güldürməlisən. Teatrın da iki emblemi var: ağlayan və gülən. Yəni komediya və faciə. Bədii qiraətdə də, məsələn, Mirzə Cəlilin "Ölülər"indən Kefli İskəndərin monoloqunu, yaxud İlyas Əfəndiyevin "Apardı sellər Saranı" əfsanə-hekayəsini, ya da Ənvər Məmmədxanlının "Buz heykəl"ini söyləyirəm. Bunların hər birinə ayrıca yanaşır, fərqli təqdim edirsən. Bu mənada, həm aktyorluqda, həm də qiraətdə özünəməxsus incəliklər etmək tələb olunur. Sənətin başlıca meyarı həm də ürəkdir. Ürək yoxdursa, sənət də yoxdur. Rəhmətlik Həsən Əbluc deyirdi ki, əvvəl ürək sonra fikir, sonra da dodağa gələn sözlər. Fərq ondan ibarətdir ki, aktyorun tərəf-müqabili olur, bədii qiraətçinin isə tərəf-müqabili minlərlə tamaşaçıdır. O, tamaşaçıya sözlə necə təsir edib diqqətini çəkəcək, sözlə necə işləyəcək – bax budur başlıca qayə. Qəlb süzgəcindən keçməyən söz heç vaxt tamaşaçıya təsir edə bilməz.

*– Bu gün bədii qiraətçilər incəsənətin digər sahələrində çalışanlarla müqayisədə azdır. Dərs dediyiniz universitetdə bu sahəyə gənclərin marağı necədir?*

– Bədii qiraətçilərin sayı dünyasını dəyişənlərlə bərabər, 10-12 nəfər olar. Bu sənət həddindən artıq çətin sahədir. Xanəndə sözü unuda bilər və tar-kaman cütlüyü onun bir neçə saniyəlik düzəliş etməyinə imkan yaradar. Bizim sənətdə söz yaddan çıxdı, fikir dolaşdısa, hər şey dəyişir. Minlərlə tamaşaçının gözü səndədir. Onların hisslərinə xitab etməyi bacarmalısan. Budur sənətin çətinliyi və böyüklüyü.

*– Tələbələriniz arasında istedadlıları varmı?*

– Mədəniyyət və İncəsənət Universitetinin Səhnə danışığı kafedrasında məsləhətçi-professor vəzifəsində çalışıram. Çox şadam ki, burada III kurs tələbələrinə bir semestr bədii qiraət dərsi keçirilir. Səhnə danışığı ayrı, bədii qiraət ayrı dərsdir. Bu işi universitet rəhbərliyinin təqdirəlayiq addımı kimi dəyərləndirirəm. 2023-cü ilin sentyabr ayından qeyd etdiyim vəzifəni daşıyıram. Bizim universitetdə yaradıcı gənclər var, amma çox deyil. Bu sənətdə ən başlıca amil ürəyəyatımlı səs və yenə deyirəm, ürəkdir. Şeir əzbərləmək şərt deyil. Digər nüanslar sonradan düzəlir. Deyəcəksiniz elə səs, səs... Səs başqa aləmdir. Məsələn, Aleksandr Belyavski adlı rus aktyor vardı. "Görüş yerini dəyişməz olmaz" filmində quldur rolunu oynayır. Onun səsinin gözəlliyi var. Çox filmlərin dublyajında iştirak edib. Məşhur "Sprut" italyan serialında Kapitan Karradonu səsləndirən də odur. Səsi sanki köklənmiş tardır...

Bir qədər də öz sələflərimdən danışım. Unudulmaz Həsənağa Salayev. İsmayıl Şıxlının "Dəli Kür" romanından Cahandar ağanın Qəmər adlı atı ilə söhbətini dinləyəndə adam heyrətdən donub qalır. Filmdə o hissə yoxdur. Romandan 6-7 dəqiqəlik o hissəni Həsənağa Salayev səsi ilə necə gözəl canlandırıb. Eləcə də aktyorlar Yusif Vəliyev, Şahmar Ələkbərov, diktor Aydın Qaradağlı... Bu sənətdə səs yoxdursa, səslə düzgün işləmirsənsə, materiallar üzərində nə qədər çalışsan da, təsirsiz olacaq.

*– Qiraətçi kimi ən çox hansı şairin yaradıcılığına müraciət etmisiniz?*

– Ən çox müraciət etdiyim Məmməd Araz, Fikrət Qoca, Musa Yaqub, Ramiz Rövşən, Qabil, Zəlimxan Yaqub, Ramiz Qusarçaylı, Əjdər Ol, Sabir Sarvan, Ayaz Arabaçı, Səadət Buta, Ələmdar Quluzadə və başqalarıdır. Aşıq Ələsgər mənim ruhumdur. Sabir, Füzuli... Sevdiyim poeziya örnəkləri sanki mənim övladımdır. Bəzən tanımadığım, üzünü görmədiyim şairlərin də poetik nümunələrini sevə-sevə qiraət etmişəm. Rəhmətlik Alim Məhərrəmlinin, Fərqanə Mehdiyevanın şeirləri də bu sıradandır. Mənim üçün əsas şeirin tutumudur. Məsələn, Rəsul Rzanın "Anlamaq dərdi" şeirində olduğu kimi:

*Kimi dərdindən içir,*
*kimi kefindən.*
*Kimi təzə paltardan qorxur,*
*kimi kəfəndən.*
*İskəndəri soruşdunuz məndən?*
*İskəndər içərdi,*
*Ləqəbi də "Kefli İskəndər"di.*
*Gecə-gündüz düşündürürdü onu,*
*diri ölülərin dərdi.*
*Yoxsa o da bir poçt məmuru olar,*
*nə dərdlənər, nə içərdi.*
*Ömrü ölülər içində*
*sakit, səssiz keçərdi.*
*Qınamayın İskəndəri!*
*Yaman olur anlamaq dərdi.*

Xalq şairimiz Vahid Əziz ötən ilin 15 oktyabrında Prezident İlham Əliyev Xankəndinə gedəndə "Xankəndi, xanlığın mübarək olsun" adlı şeir göndərdi. Bu şeir efirlərdə səsləndi. Ötən il dekabrın 21-də Xankəndidə futbol matçı zamanı stadionun yanında bu şeiri səsləndirdim. Haqqımda da çoxsaylı şeirlər yazılıb. Bu sıradan Musa Yaqubun şeirini xatırlatmaq istərdim:

*Sənət qalmır bir ölçüdə, vəzndə,*
*Öz çəkin var sənət tərəzisində.*
*Sözün rəngi cilvələnir səsində,*
*Söz incidir, səs dürdanə,*
*nə deyim?*

*Söz soyusa, sınıq qəlbim qaralar,*
*Üst-başımı boran alar, qar alar,*
*Sən şeir de, mən ağlayım, Ağalar,*
*Sən divanə, mən divanə,*
*nə deyim?*

*– 44 günlük Vətən müharibəsinədək, əsasən, yurd nisgilli poetik örnəklərə müraciət edirdiniz. Bu gün daha çox hansı mövzulara müraciət edirsiniz?*

– Yaradıcılığımda Vətən mövzusu həmişə əsas yerlərdən birini tutur. Digər mövzulara da biganə deyiləm. Birinci və İkinci Qarabağ müharibələrində hərbçilərimizdə ruh yüksəkliyini artırmaq üçün cəbhə bölgələrində çoxsaylı çıxışlar etmişəm. 2020-ci ilin avqust ayından əsgər geyimində hər gün hərbi hissələrdə olurdum. Bu gün isə əsasən, Qələbə ruhlu mövzular, insanlıq, sevgi və s. mövzulara müraciət edirəm.

*– Bu il sizin üçün yubileylə əlamətdardır...*

– 50, 60 və 65 illiyimi dostlarımla qeyd etmişəm. Bu il yubiley yaşımı həyatın axarına buraxdım. Buna baxmayaraq, orta məktəblərdə mənimlə görüşlər təşkil edilib, televiziyada mənə veriliş həsr olunub. Vətənimə, xalqıma hər zaman təmənna güdmədən xidmət etdim. Yurdumu, dövlətimi, müstəqilliyimizi sevdim. Qismət oldu Şuşada, Qubadlıda, Laçında, Xankəndidə oldum. Bundan böyük bəxtəverlik olar?!

**Lalə Azəri**

# Şeirlərə yeni çalarlar qatan qiraət ustası

**Suraxanı Rayon İcra Hakimiyyəti və YAP Suraxanı Rayon Təşkilatının birgə təşkilatçılığı ilə Əməkdar artist, Mədəniyyət və İncəsənət Universitetinin professoru, rayon Ağsaqqallar Şurasının sədr müavini Ağalar Bayramovun 70 illik yubileyi təntənəli şəkildə qeyd olunub.**

Yubiley mərasimində icra başçısı Əziz Əzizov, millət vəkilləri Adil Əliyev, Fazil Mustafa, Aqil Abbas, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, Mətbuat Şurasının sədri Rəşad Məcid, Mədəniyyət və İncəsənət Universitetinin müəllim və tələbələri, şəhid ailələri, qazilər və digər qonaqlar iştirak ediblər.

Tədbirdə Əziz Əzizov və başqa çıxış edənlər yubilyar sənətkara təbriklərini çatdırıb yaradıcılıq yolundan danışıblar. Qeyd olunub ki, şairlərimizin şeirləri Ağalar Bayramovun ifasında yeni çalarlar qazanır.

Tədbirdə yubilyarın, Xalq artisti Gülyanaq Məmmədovanın, eləcə də Mirələm Mirələmov, Bahar Lətifqızı və digərlərinin ifasında təqdim olunan bədii hissə tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Pressfakt



# İllər öncə qəzetlər nədən yazırdı?

## Milli Kitabxananın dövri mətbuat arxivindən...

Mətbu səhifələrdən budəfəki seçmələr sovetlər zamanında respublikanın əsas dövri nəşri olmuş "Kommunist" qəzetindəndir.

Onlardan biri uzaq 30-cu illərə aiddir. Ermənistanda, İrəvanda (o dövrdə Erivan kimi yazılıb) Azərbaycan musiqi dekadasına (ongünlüyünə) hazırlıqdan bəhs edir. Seçmədə o dövrün yazı üslubu və ifadələri (dekada – deqad; bəstəkar – kompozitor və s.) olduğu kimi saxlanılıb.

### Ermənistanda Azərbaycan musiqi deqadı

Ermənistan Maarif Xalq Komissarlığı Azərbaycan Maarif Xalq Komissarlığı ilə birlikdə fevral ayında Erivanda Azərbaycan musiqi deqadı keçirməyi təşkil edirlər. Bu deqad müddətində şura Azərbaycanının xalq etnoqrafik musiqi nümunələri və musiqi mədəniyyətinin yeni nailiyyətləri nümayiş etdiriləcəkdir.

Azərbaycan kompozitorlarından Üzeyir Hacıbəyli, Maqomayev, Quliyev, Niyazi, Zeynallı, Gevondyan və sairlərinin əsərləri proqrama daxil edilmişdir.

Deqad müddətində gecələrdən biri simfonik musiqiyə, digər bir gecə Hacıbəylinin idarəsi altında xalq musiqi alətindən notlu orkestronun çıxışına həsr ediləcəkdir. Xalq musiqi gecəsində xanəndələr, tarçılar, qarmon çalanlar və türk qadınları mədəniyyət sarayının orkestrosu çıxışda bulunacaqlardır. Ermənistandan sonra Moskva və Leninqradda Azərbaycan musiqi deqadı keçirilməsi nəzərdə tutulur.

*"Kommunist", 27 yanvar 1936-cı il*

***

Digər informasiya isə yarım əsr sonraya, azərbaycanlı əhalinin Ermənistan SSR ərazisindən deportasiyasının davam etdiyi dövrə aiddir. Azərbaycanlıları tarixi yurdlarından didərgin salan Ermənistan rəsmiləri Mərkəzin (Moskvanın) gözündə xoş görünsün deyə Quqark rayonunun (soydaşlarımıza qarşı çoxsaylı qətllərin törədildiyi rayon) rəhbərliyi adından mətbuatda siyasi riyakarlıq nümunəsi olan bu müraciəti dərc etdiriblər.

### Quqark rayonundan Azərbaycan SSR-ə köçmüş azərbaycanlılara müraciət

Əziz azərbaycanlı qardaşlar!

Keçən ilin axırında iki qardaş xalqın nümayəndələri arasında münasibətlər kəskinləşmişdir və bu, şübhəsiz, hər iki xalqın mənafelərinə zidd idi. Çox çətin vəziyyət yaranmışdı, belə vəziyyət millətlərimizin tərəqqisinə mane olur, iki qardaş xalqın əsrlər boyu davam edən dostluğuna ciddi zərbə endirirdi. Nəticədə ermənilər Azərbaycandan və azərbaycanlılar Ermənistandan köçməyə başladılar. Rayona üz vermiş dağıdıcı zəlzələ vəziyyəti daha da ağırlaşdırdı.

Əziz qardaşlar, qarşılıqlı incikliyə gətirib çıxaran hər cür səbəbləri aradan qaldırmaq, əmin-amanlıq və asayiş yaratmaq, mehriban qonşuluq münasibətlərini möhkəmləndirmək üçün qəti və ağıllı tədbirlər görmək vaxtı gəlib çatmışdır.

Rayon partiya komitəsi və rayon icraiyyə komitəsi sizə – Quqark rayonundan Azərbaycan SSR-in Xaçmaz rayonuna köçmüş azərbaycanlılara müraciət edib onları doğma kəndlərinə qaytarmağa, öz doğma yurdlarının bərpasına başlamağa, zəlzələ ilə əlaqədar bütün lazımi maliyyə kompensasiyası almağa, dinc əmək həyatına qoşulmağa çağırırlar. Bu günədək 1000 nəfərdən çox azərbaycanlı doğma kəndlərinə qayıtmışdır. Biz onların təhlükəsizliyini təmin etmək üçün hər cür tədbirlər görür və təsərrüfatlarının bərpasına, daimi yaşayış yerlərində kök salmasına lazımi yardım göstəririk.

Ermənistan KP Quqark Rayon Komitəsi
Ermənistan SSR Quqark Rayon Sovetinin İcraiyyə Komitəsi.

*"Kommunist", 26 yanvar 1989-cu il*

# Tamaşaçını inandır ki...

## Gənc Tamaşaçılar Teatrındakı yeni "Antiqona"dan təəssürat

Bilirəm niyə, amma mən qədim yunan əsatirlərindən qopub gələn çılğın Antiqonaya daim qəzəbli olmuşam. Onun bütün gözəl hiss və gələcəklə bağlı arzularının üstünə bir təpcək qum tökməklə amansız kraldan intiqam almağına gülmüşəm. Niyə? Çünki ən böyük qisas ölmüş, öldürülmüş adamı basdırmaqla bitmir...

Dövlət Gənc Tamaşaçılar Teatrında aktyor, Əməkdar artist Nofəl Vəliyevin böyük səhnədə rejissor kimi ilk cəhdi olan "Antiqona"sını çoxdan gözləyirdim. Ona görə yox ki, bu əsatirdən doğan faciə janrlı pyesin yerli quruluşda baxdığım ilk nümunədir. Ona görə ki, N.Vəliyev əsri yarılayan yaşında aktyor kimi çox şeyi borclu olduğu bu səhnədə rejissor kimi nəyi necə deyəcək və edəcək...

Hə, onu da deyim ki, bu gün təqdim olunan tamaşaların mövzu, janr, tərtibat və təqdimat üslub və formalarında birmənalı bir meyar olmalıdır – tamaşaçı. Niyə? Çünki ya sən sənət naminə gördüyün işin yüksək səviyyəsinə özünü və sənə inananları inandırmalısan, ya da tamaşan kassa gətirməlidir. Heç kim sözümü qəribçiliyə salmasın. Bu gün əksər teatrların cari repertuar planına daş kimi düşüb, tamaşaçı gətirməyən çoxlu əsər var və bu, sözsüz ki, teatra yükdür...

Digər tərəfdən, istənilən çoxfunksiyalı həll, mürəkkəb konstruksiyaların səhnəyə daşınması və s. tamaşaların həm də sənət festivallarında yoluna çəpər çəkir. Üstəlik, səhnənin tavanındakı hər ştanketdən bir nəsnənin asılması və tamaşanı müşayiət edən texniki çətinliklər, üstəlik, ağır dekorasiyalar izafi xərc, üstəlik, teatrın rekvizit sexinə yükdən başqa bir şeyə qulluq eləmir. Qulluq deməkən, azçox bildiyim qədəri ilə, səhnəyə qoyulan istənilən rekvizitin ali də olmasa, bir ibtidai məqsədi olmalıdır. Yəni səhnəyə tüfəng qoyulubsa, atılmalı, qılınc varsa qınından çıxmalıdır. Bu sadəladıqlarımın baxdığım "Antiqona"ya bir xeyli dəxli olduğundan keçirəm digər məsələyə.

Çox sevdiyim teatrşünas Məryəm Əlizadə "Teatr: seyr və sehr" kitabında yazır: "Poetikanın təcəssümü aşağıdakı funksional bölgüdə gerçəkləşir: ədəbi əsas – dramaturq; zaman-məkanda gerçəkləşdirmə – aktyor; vizual təzahür – rəssam; musiqili dramaturgiya – bəstəkar; texnoloji təzahür – rejissor".

Gəlin görək, bu beş əsas komponentin hər birini konkret məzmunla yükləsək, hansı mənzərə alınar.

Ən əsası, tamaşanın hakimi rejissordursa, onun qurulușu aktyorun daxili potensialına adekvat oyunla çulğaşmasa, heç nə ali məramı – tamaşaçıya uzunmüddətli təsiri ifadə edə bilməz...



Bilənlər bilir ki, Jan Anuy "Antiqona" dramını antik dövrün dramaturqlarından Sofoklun eyniadlı faciəsinin motivləri əsasında yazıb. Pyes bundan əvvəl də bir neçə teatrımızda oynanılıb. Diplom tamaşası kimi, səhv etmirəmsə, bir neçə dəfə ADMİU-da da qoyulub. Yəqin elə Nofəl müəllim də kursu ilə bu tamaşanı işləyib. Çünki texniki baxımdan əsərin imkanları ilə aktyor oyunu arasındakı müqayisənin öhdəsindən gəlmişdi.

Janrı ikihissəli dram kimi (ki bu ikihissəli həll də tamaşaçını izafi yükləmiş olur. Ümumiyyətlə, bu gün "0" dekorasiya və daha çox aktyor oyununda, vizuallıqda itib-batan post-dramatik teatrın bir tələbi də budur – az söz, çox hərəkət, özü də qısa zamanda) müəyyən olunan tamaşanın rəssamı Telman Şıxıyev, bəstəkarı Röya Hüseynovadır. Plastik həll isə Ceyhun Dadaşova aiddir.

Səhnə əsərində Əməkdar artist Güşvər Şərifova, aktyorlar Kərəm Hadızadə, Aygün Fətullayeva, Anar Seyfullayev, Rəşad Səfərov, Əbdül Rzayev, Hilal Dəmirov, Şəbnəm Hüseynova, Könül Əbilova, Fəridə Qurbanova, Ramiq Nəsirov, İlhan Sadıqov, Nurlan Süleymanov, Ümman Budaqov iştirak edirlər.

Aktyor oyunu barədə geniş söz açmayacağam. Çünki əsərin iki güclü və bir-birinə zidd qütbü – Kreon (K.Hadıyev) və Antiqona (A.Fətullayeva) o tandemi yaxşı bəlli olan qırmızı saplardan "tor"a tez-tez ilişirdilər. Qısacası, geyimi ilə qadınlığına vurğu hesablanmış Antiqona Aygün xanıma artıq əzab verdi. Üstəlik, son vaxtlar bir sıra tamaşalarda "döş" alıb – aktrisaları səhnədə saman çuvalı kimi sürümək – ki, bu, əsla estetik deyil. Tamaşa boyu Antiqona ilə Kreon bu fiziki əzaba hesablanmış oyun məngənəsində sıxıldılar.

Kreonun oyunçusu qəhrəmanı ilə heç cür dil tapa bilmədi. Hərçənd K.Hadıyev güclü emosional təsirə malik tipaj, oyun təyinini asanlıqla verəcək qədər istedadlı ifaçıdır. Diqqəti müşahidəci kimi gəldiyim bir qənaəti bölüşməyə bilmərəm: məncə, baş qəhrəman – amansız Kralla tamaşanın başçısı – rejissor arasında inamsızlıq, ilkin etimaddan sonrakı yaradıcı aktda mübahisəli mülahizələr ağır basmasaydı, çaşdırıcı mənzərə də alınmazdı.

Ümumiyyətlə, pyes oxunuşundan premyerayadək uzun yolda aktyorlarla çox işləyən, yəqin ki, say etibarilə ümumi planından da artıq nöqtələrdə məşq edən rejissorun tamaşanın digər heyəti ilə işi daha səhmanlı görünürdü. Xüsusən iki və üçüncü plan aktyorların oyunu daha səliqəli, individual alınmışdı. Artıq heç nə yox idi.

Əsər sadə dildə nəql olunur. Bizə nağılçı, təfsirçi kimi təqdimatı aktrisa Şəbnəm Hüseynova edir. Oyununa arabir yumor, kinayə, öldürücü sarkazm qatdığından hadisələr tamaşaçını diri, prosesdə saxlayır və bu, rejissor tapıntısı kimi yaxşı gedişdir.

Az qala hamı bununla barışır. Təkcə Antiqonadan başqa. Qardaşını dəfn etmək cəhdləri boşa çıxsa da, istəyinə nail olur və öz ölümü ilə dayısından intiqamını alır. Axı Kreonun yeganə oğlu Hemon (H.Dəmirov) onun nişanlısıdır və qadınına dəli kimi aşiqdir. Sözsüz ki, oğul da atasından qisasını öz canı ilə alır və intihar edir. Beləcə, basdırılmayan ölünün qurban sırası genişlənir.

Təsirli hekayətin səhnə təqdimatında rejissorun dünya ədəbiyyatında ilk baş qəhrəman, mərkəzi olan Antiqonaya münasibəti birmənalı deyil.

O hər kəsin oğlan kimi gördüyü çəlimsiz, amma çox güclü qızcığazdan sevgi dolu cazibədar qadın da yaradır, zalım hökmdarla aşiq-aşiq oynayırmış kimi axmaq cəsarətli təlxək də, bir kəlməsi ilə bütün hökmlərin üzərindən xətt çəkən hakim də. Amma ən çox ona saf uşaq, məsum qadın, günahsız qurban kimi baxır. Ən əsası, onun Antiqonası qadındır. O sevir, ana olmaq, çox sakit həyat yaşamaq, ərini sevən qadın kimi yaşlanmaq istəyir. Biz onun Hemon ilə vida səhnəsində bunu aydın görürük. A.Fətullayeva qəhrəmanının hisslərini özünü az qala dağa-daşa çırpa-çırpa, elə həzin deyir ki, sən "bapbalaca boyun dam dolusu toyu"nda çırtıq çalıb "oynamaya" bilmirsən.



Hekayətdən bilirik ki, Çar Edipin ölümündən sonra oğlanları Etokl və Polinik növbə ilə ölkəni idarə etməlidirlər. Etokl hökmranlıq müddətini başa vursa da, taxt-tacı qardaşı Polinika verməkdən imtina edir. Haqsızlığa məruz qaldığını düşünən Polinik də tərəfdarlarını yığıb qiyam qaldırır. Nəticə gözlənilməz olur: hər iki qardaş döyüşdə həlak olur və hakimiyyət dayıları Kreonun əlinə keçir. Çar elan olunan Kreon ölkəni öz qanunlar ilə idarə edir və ilk fürsətdə nifrətini qusur. Etokla təntənə ilə dəfn etdirsə də, qiyamçı Polinikin cəsədini qurd-quşa yem etmək üçün şəhər meydanının ortasına atır. Qorumaq üçün də xeyli qarovulçu ayırır. Hədəsi də dəhşətlidir: qiyamçının dəfnə təşəbbüs edən hər kəs edam olunacaq.

Əsərdən irəli gələrək rejissor Kreona öz bəraətini də iri, qızılı sinidə təqdim edir. Daha doğrusu, şərait yaradır. Bax, K.Hadıyevin oyunu da bundan sonra açılır və o, yaşamağa şans verdiyi qızcığazın ölümünə fərmanın gətirdiyi əzabda necə darmadağın olmaq mümkündürsə, o cür də oynayır və Kreonu, az da olsa, qurban kimi əsaslandırır.

Birmənalı olaraq, "Mən ölümü seçdim, həyatımı bir ölüyə hədiyyə edərək" deyən Antiqona qəhrəmandır və tamaşanın rejissoru da əsas vurğunu buna vurur. Beləcə, finalda öz baxışını əsərdən qavranılan təəssüratla paralel şəkildə ötürməyə çalışır. Özünü də, bizi də inandırmağa çalışır ki...

**Həmidə Nizamiqızı**

---

Xatirə təqvimi — 27–30 yanvar

### Azərbaycan

**27 yanvar 1806** – Yazıçı, mütəfəkkir İsmayıl bəy Qutqaşınlı (1806-1869) keçmiş Qutqaşın mahalında (indiki Qəbələ rayonu) anadan olub. Fransız dilində yazdığı "Rəşid bəy və Səadət xanım" povesti ilk Azərbaycan nəsr əsəri sayılır. Çar Rusiyası ordusunda qulluq edib, general rütbəsinədək yüksəlib.

**27 yanvar 1903** – Görkəmli ədib Əbdürrəhim bəy Haqverdiyevin təşəbbüsü ilə Bakıda xanəndə və instrumental ifaçıların iştirak etdiyi böyük "Şərq konserti" təşkil edilib. Bu, Azərbaycanda filarmonik fəaliyyətin ilk tədbiri sayılır. Ondan əvvəl belə konsertlər Şuşada (1901) və Bakıda (1902) təşkil edilsə də, daha çox muğam üçlüyü formatında olmuşdu.

**27 yanvar 1906** – Görkəmli tarixçi Sara Balabəy qızı Aşurbəyli (1906 – 17.7.2001) anadan olub. Orta əsrlər Azərbaycan şəhərlərinin tarixinə dair dəyərli araşdırmalar aparıb, əsərləri ingilis, fransız dillərində çap edilib. Rəssamlar İttifaqının üzvü olub, boyakarlıq əsərlərinin müəllifidir.

**27 yanvar 1912** – Əməkdar memar Fərəc Səttar oğlu Fərəcov (1912 – 7.9.1990) anadan olub.

**27 yanvar 1932** – Əməkdar artist, tanınmış nağara ifaçısı Çingiz Həsənbala oğlu Mehdiyev (1932-1992) Bakıda anadan olub.

**27 yanvar 1939** – Əməkdar incəsənət xadimi, ustad saz ifaçısı, aşıq Ədalət Məmmədəli oğlu Nəsibov (1939 – 14.9.2017) Qazax rayonunda doğulub. "Yeddi oğul istərəm" filmində (aşıq) çəkilib.

**27 yanvar 1939** – Tanınmış aktrisa Ofeliya Rza qızı Əfqanlı (Ofeliya Aslan; 1939 – 18.5.2010) anadan olub. Musiqili Komediya Teatrında çalışıb. "Xoşbəxtlik qayğıları", "Yol əhvalatı" və s. filmlərdə çəkilib.

**27 yanvar 2014** – Əməkdar artist, müğənni Məhəbbət Allahverdi oğlu Kazımov (2.7.1953 – 2014) vəfat edib. "Dan ulduzu" ansamblının solisti, "Laçın" instrumental ansamblının rəhbəri olub.

**27 yanvar 2022** – Tanınmış teatrşünas, rejissor Şaiq Cabir oğlu Səfərov (18.12.1954 – 2022) vəfat edib. Müxtəlif teatrlarda çalışıb, Azərbaycanda beynəlxalq teatr tədbirlərinin təşkilində yaxından iştirak edib.

**28 yanvar 1908** – Bəstəkar, Azərbaycanın Əməkdar incəsənət xadimi Boris İsaakoviç Zeydman (1908-1981) Peterburqda anadan olub. Ü.Hacıbəylinin dəvəti ilə Bakıya gəlib, Dövlət Konservatoriyasında dərs deyib (1940-60). Bakıda "Maskarad", "Ağıldan bəla" operalarını, "Qızıl açar" baletini yazıb.

**28 yanvar 1923** – Azərbaycan Yazıçılar Birliyinin orqanı – "Maarif və mədəniyyət" jurnalı (redaktor Tağı Şahbazi Simurq) nəşrə başlayıb. Sonrakı illərdə "İnqilab və mədəniyyət", "Revolyusiya və kultura" və s. adlarla çıxıb. 1953-cü ildən "Azərbaycan" adlanır.

**28 yanvar 1925** – Şair, dramaturq, tərcüməçi, teatrşünas Adil Qafar oğlu Babayev (1925 – 19.8.1977) Naxçıvanda anadan olub. "Dağlar qızı", "Qız görüşə tələsir" və s. pyeslərin müəllifidir.

**28 yanvar 1980** – Azərbaycanda teleradio diktorluq məktəbinin banilərindən biri, diktorlar arasında respublikanın ilk Əməkdar artisti Aydın Çingiz oğlu Qaradağlı (20.8.1929 – 1980) vəfat edib.

**28 yanvar 1985** – SSRİ Xalq artisti, görkəmli teatr rejissoru, pedaqoq, sənətşünaslıq doktoru, professor Mehdi Əsədulla oğlu Məmmədov (22.5.1918 – 1985) vəfat edib. Akademik Opera və Balet, Akademik Milli Dram, Rus Dram teatrlarında baş rejissor işləyib.

**28 yanvar 2015** – Xalq şairi, dramaturq Vaqif Səmədoğlu (Vaqif Səməd oğlu Vəkilov; 5.6.1939 – 2015) vəfat edib. "Bəxt üzüyü", "Yayda qartopu oyunu", "Generalın son əmri" və s. pyeslərin müəllifidir. Milli Məclisi deputatı (2000-2010) olub.

**28 yanvar 2019** – Prezident İlham Əliyev Xalq yazıçısı İsmayıl Şıxlının 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**29 yanvar 1926** – Xalq artisti, sirk ustası, jonqlyor, illüzionist Xosrov Abdulla oğlu Abdullayev (1926 – 31.3.1980) Şamaxıda anadan olub. "Uşaqlığın son gecəsi", "O qızı tapın" və s. filmlərdə çəkilib.

**29 yanvar 1927** – Məşhur balerina, Azərbaycanın və SSRİ-nin Xalq artisti Leyla Məhəd qızı Vəkilova (1927 – 20.2.1999) anadan olub. Opera və Balet Teatrının aparıcı balet artisti olub. 1953-cü ildən Bakı Xoreoqrafiya Məktəbində dərs deyib, tədris ocağına rəhbərlik edib.

**29 yanvar 1938** – Xalq artisti, mahir qoboy ifaçısı Kamil Cəlil oğlu Cəlilov (1938 – 23.2.2022) Bakının Buzovna kəndində doğulub. Niyazi adına simfonik, S.Rüstəmov və Ə.Bakıxanov adına xalq çalğı alətləri, "Dan ulduzu" instrumental ansamblının solisti olub.

**29 yanvar 2011** – Əməkdar rəssam Ənvər Vahid oğlu Qarayev (18.2.1947 – 2011) vəfat edib. Dekorativ-tətbiqi sənət, xalça, batika, parça üzərində tikmə texnikasının mahir ustası idi.

**29 yanvar 2016** – Xalq artisti, bəstəkar Musa Abdulla oğlu Mirzəyev (26.1.1933 – 2016) vəfat edib. Simfoniya, simfonik orkestr üçün əsərlər, kantata, vokal silsilələri, mahnıların müəllifidir. Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**30 yanvar 1920** – Əməkdar incəsənət xadimi, kinooperator Teyyub Mirzəhəsən oğlu Axundov (1920 – 3.12.1991) anadan olub. "Onu bağışlamaq olarmı?", "Sehrli xalat", "Dağlarda döyüş", "Tütək səsi" və s. filmlərin operatorudur.

**30 yanvar 1935** – Əməkdar rəssam Gennadi Demyanoviç Brijatyuk (1935 – 11.6.2008) Gəncə şəhərində anadan olub. Yaradıcılığında gül təsvirləri, Abşeronla bağlı peyzajlar, qadın portretləri daha çox yer tutur.

**30 yanvar 1936** – Əməkdar rəssam Əli Verdiyev (1936 – 8.5.2020) Lənkəranda anadan olub. Portret, mənzərə, natürmort və digər janrlarda əsərlərin, çoxfiqurlu tabloların müəllifidir: "Babəkin savaşı", "Hüseyn Cavid", "Qızıl toy" və s.

**30 yanvar 1936** – Əməkdar elm xadimi, ədəbiyyatşünas Araz Məmməd Arif oğlu Dadaşzadə (1936 – 4.11.1990) anadan olub.

**30 yanvar 1948** – Xalq artisti, tanınmış vokal ifaçısı Elxan Yəhya oğlu Əhədzadə (1948 – 8.10.2010) Bakıda doğulub. Akademik Musiqili Teatrda, Mahnı Teatrında çalışıb.

**30 yanvar 1943** – Tanınmış aktyor Ələsgər Əli oğlu İbrahimov (1943 – 10.3.1983) anadan olub. "İnsan məskən salır", "Yeddi oğul istərəm", "Torpaq. Dəniz. Od. Səma" və s. filmlərdə yaddaqalan obrazlar yaradıb.

**30 yanvar 1998** – Prezident Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 80 illiyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

### Dünya

**27 yanvar 1756** – Avstriya bəstəkarı Volfqanq Amadey Motsart (Joannes Chrysostomus Wolfgang Theophilus Mozart; 1756 – 5.12.1791) Zalsburq şəhərində doğulub. 6 yaşından musiqi bəstələməyə başlayıb. Alman dilində ilk operanın ("Hərəmxanadan qaçırılma"), müxtəlif alətlərlə orkestr üçün 40-a yaxın əsərin müəllifidir.

**27 yanvar 1775** – Alman filosofu Fridrix Vilhelm Yozef fon Şellinq (Friedrich Wilhelm Joseph von Schelling; 1775-1854) anadan olub. Əsərləri: "İncəsənət fəlsəfəsi", "Etiraf fəlsəfəsi" və s.

**27 yanvar 1832** – İngilis yazıçısı, filosof Luis Keroll (Lewis Carroll – əsl adı Charles Lutwidge Dodgson; 1832-1898) anadan olub. Uşaqlar üçün məşhur əsərlərin ("Alisa Möcüzələr ölkəsində", "Alisa Əyri güzgülər ölkəsində") müəllifidir.

**28 yanvar 1912** – Amerika rəssamı, abstrakt ekspressionizmin banisi Pol Cekson Pollak (Paul Jackson Pollock; 1912-1956) anadan olub.

**29 yanvar 1860** – Rus yazıçı-dramaturqu Anton Pavloviç Çexov (1860 – 15.7.1904) anadan olub. "Qağayı", "Albalı bağı", "Vanya dayı", " Üç bacı" pyeslərinin, povest və hekayələrin müəllifidir.

**29 yanvar 1866** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1915) Romen Rollan (Romain Rolland; 1866 – 30.12.1944) anadan olub. Əsərləri: "Jan-Kristof" (10 kitabdan ibarət roman), "Canavarlar", "İdrakın təntənəsi", "Danton" pyesləri və s.

**30 yanvar 1720** – İtalyan rəssam, Venesiya məktəbinin nümayəndəsi Bernardo Belotto (Bernardo Francesco Paolo Ernesto Bellotto; 1720-1780) anadan olub.

**30 yanvar 1923** – SSRİ Xalq artisti, kinorejissor Leonid Qayday (1923 – 19.11.1993) anadan olub. Populyar sovet kinokomediyalarının ("Qafqaz əsiri", "Brilyant əl", "İvan Vasilyeviç peşəsini dəyişir" və s.) müəllifidir.

**30 yanvar 1928** – Amerika blüz musiqisinin tanınmış simalarından olan müğənni Rut Braun (Ruth Brown; 1928-2006) anadan olub.

**Hazırladı: V.Orxan**

# Heydər Əliyev Mərkəzində gürcü rəssamın sərgisi

## "Bu əsərlərdə gürcü ruhu, gürcü ənənələri və gürcü qonaqpərvərliyi əksini tapıb"



əvvəli səh. 1-də

Tədbirdə çıxış edən Heydər Əliyev Mərkəzinin direktorunun birinci müavini Fərqan Novruzov diqqətə çatdırıb ki, sərgidə nümayiş olunan əsərlər Lado Qudiaşvilinin ailəsinin şəxsi mülkiyyətindədir. Fırça ustasının seçilmiş rəsmləri janrlar üzrə bölünərək sərgilənir. F.Novruzov sərginin ərsəyə gəlməsinə görə Lado Qudiaşvili Fonduna və Gürcüstanın Azərbaycandakı Səfirliyinə təşəkkürünü ifadə edib.

Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataradze iki ölkə arasında hər zaman dostluq, qardaşlıq münasibətlərinin olduğunu qeyd edib: "Bizim əlaqələrimiz həm siyasi, həm iqtisadi sahələrdə uğurla inkişaf edir, humanitar, mədəni əlaqələri xüsusi qeyd etmək istərdim".

Səfir bildirib ki, ötən ilin sonlarında Azərbaycanın və Gürcüstanın Baş nazirlərinin iştirakı ilə Tbilisidə Heydər Əliyev adına Azərbaycan Dram Teatrının yeni binasının təməli qoyulub. Bu yaxınlarda Gəncə şəhərində görkəmli gürcü şairi Nikoloz Barataşvilinin xatirə lövhəsi açılıb. Qax Gürcü Dövlət Dram Teatrına yazıçı İlya Çavçavadzenin adı verilib.

Diplomat sərginin üç ay davam edəcəyini, ziyarətçilərin bu sərgidən zövq alacaqlarını vurğulayıb: "Lado Qudiaşvilinin əsərlərində gürcü ruhu, gürcü ənənələri və gürcü qonaqpərvərliyi öz əksini tapıb".

Səfir sərginin təşkilinə görə Lado Qudiaşvili Fonduna, Gürcüstan Dövlət Muzeyinə, Heydər Əliyev Fonduna və Heydər Əliyev Mərkəzinə minnətdarlığını ifadə edib.

Azərbaycan Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov Lado Qudiaşvilinin yaradıcılığından söz açaraq deyib ki, Lado çox kiçik yaşlarından rəsm çəkməyə başlayıb, onun sənəti indiyədək hamını heyran edir.

Lado Qudiaşvili Fondunun təsisçisi Anna Meliva Azərbaycan dövlətinə və bu sərgidə əməyi keçən hər kəsə təşəkkürünü bildirib.

Sonra qonaqlar sərgi ilə tanış olublar.

Bakı Xoreoqrafiya Akademiyasının məzunlarının ifasında gürcü rəqsi nümayiş olunub.

Lado Davidoviç Qudiaşvili (1896–1980) məşhur rəngkar, qrafik, monumentalist rəssamdır. Əsərləri dövrün ideologiyası və sosialist realizmindən xeyli uzaq olsa da, "SSRİ-nin Xalq rəssamı", "Sosialist Əməyi Qəhrəmanı" fəxri adlarına layiq görülüb.

Əfsanəvi gürcü rəssam Niko Pirosmani Lado Qudiaşvilinin kumiri olub. O, bir neçə dəfə rəsm əsərlərində Niko Pirosmani obrazına müraciət edib. Rəssam Avropada da şöhrət qazanıb. O, xüsusilə altı ilə yaxın (1919-1925) yaşadığı Parisin incəsənət aləmində yaxşı tanınıb. Dövrün məşhur rəssamları Mark Şaqal, Pablo Pikasso, şairlər Vladimir Mayakovski, Sergey Yesenin ilə ünsiyyəti yaratdığı əsərlərə özünəməxsus iz qoyub. Gürcü modernizminin və Tbilisi avanqard hərəkatının banilərindən biri sayılan rəssam əsərlərindəki personajların simasında özünü emosiyaların sonsuz çeşidini ustalıqla canlandıran diqqətli müşahidəçi və psixoloq kimi də təsdiq edir.



Bakı sərgisində müəllifin qrafik işlərini də qeyd etmək lazımdır. Bunların sırasında səhnə üzü görməyən baletin kostyumları üçün çəkilmiş eskizlər də var. Lado Qudiaşvilinin ilk sərgisi 19 yaşında olarkən Tbilisidə açılıb və onu sənət aləmində məşhurlaşdırıb.

Rəssamın Heydər Əliyev Mərkəzindəki sərgisini aprelin 24-dək izləmək mümkün olacaq.

# Sofiyada Azərbaycan kinosu gecəsi və fotosərgi

Bolqarıstanın paytaxtı Sofiya şəhərində keçirilən 16-cı MENAR Beynəlxalq Film Festivalı (12–28 yanvar) çərçivəsində Azərbaycan kinosu gecəsi və "Azərbaycana səyahət" adlı fotosərgi təşkil edilib. Bu barədə ölkəmizin Sofiyadakı səfirliyindən məlumat verilib.



Gecədə səfir Hüseyn Hüseynov və MENAR festivalının təşkilatçı şirkətinin rəhbərləri çıxış edib. İştirakçılara Azərbaycanın mədəniyyəti və kino sənəti haqqında məlumat verilib.

Qeyd edək ki, festivalın proqramında Azərbaycandan rejissor Əli-Səttar Quliyevin "Əlvida, Şmidt!" tammetrajlı bədii filmi (2019) də yer alıb. Mədəniyyət Nazirliyinin sifarişi ilə "Mozalan" studiyasında çəkilən film almanların Azərbaycana köçürülməsinin 200 illiyinə həsr olunub.

Yanvarın 22-dən 28-dək davam edəcək "Azərbaycana səyahət" sərgisində isə Bolqarıstanda yaşayan fotoqraf Arslan Əhmədovun Azərbaycanın ucqar bölgələrində çəkdiyi, insanın yaşayış tərzini və mədəniyyətini, ölkəmizin əsrarəngiz təbiətini əks etdirən şəkillər nümayiş olunur.

# "Oskar"a kimlər iddiaçıdır?

Amerika Kino Akademiyası 2024-cü ildə "Oskar" mükafatına namizədlərin qısa siyahısını açıqlayıb.



Ən çox nominasiya "Oppenheimer" filminə məxsusdur: 13 nominasiya. "Poor Things" filmi 11, "Killers of the Flower Moon" 10 nominasiyada namizəd göstərilib.

"Ən yaxşı film" üzrə nominantlar bunlardır: "American Fiction" ("Amerika qiraəti", rejissor Kord Cefferson); "Anatomy of a Fall" ("Düşmə anatomiyası", Fransa, rejissor Justine Triet); "Barbie" (ABŞ, rejissor Qreta Qerviq); "The Holdovers" ("Atılmışlar", ABŞ, rejissor Aleksandr Peyn); "Killers of the Flower Moon" ("Çiçək ayının qatilləri", rejissor Martin Scorsese); "Maestro" (ABŞ, bəstəkar Leonard Bernstayn haqqında bioqrafik film, rejissor Bredli Kuper); "Oppenheimer" (Britaniya-ABŞ, rejissor Kristofer Nolan); "Past Lives" ("Ötən həyatlar", ABŞ, rejissor Selin Son); "Poor Things" ("Kasıblar-bədbəxtlər", ABŞ-Britaniya, rejissor Yorqos Lantimos); "The Zone of Interest" ("Maraqlar zonası", Britaniya, rejissor Conatan Qleyzer).

"Ən yaxşı rejissor" nominasiyası üzrə beşlik: Justine Triet ("Anatomy of a Fall"); Martin Scorsese ("Killers of the Flower Moon"); Christopher Nolan ("Oppenheimer"); Yorgos Lanthimos ("Poor Things"); Jonathan Glazer ("The Zone of Interest").

"Ən yaxşı aktyor" nominasiyası üzrə: Bradley Cooper ("Maestro"); Colman Domingo ("Rustin"); Paul Giamatti ("The Holdovers"); Cillian Murphy ("Oppenheimer"); Jeffrey Wright ("American Fiction").

"Ən yaxşı aktrisa" nominasiyası: Annette Bening ("Nyad"); Lily Gladstone ("Killers of the Flower Moon"); Sandra Hüller ("Anatomy of a Fall"); Carey Mulligan ("Maestro"); Emma Stone ("Poor Things").

96-cı "Oskar" mükafatlarının təqdimatı martın 10-da Los-Anceleslədki "Dolby Theatre"da olacaq.

# "Daimi sülh üçün öyrənmə"

## ICESCO Beynəlxalq Təhsil Günü münasibətilə müraciət yayıb

Dünyada sülhün bərqərar olması səylərinin əsasını təşkil etmək məqsədilə təhsilin inkişafını dəstəkləmək üçün beynəlxalq resursların ayrılması zəruri amildir.

Bu barədə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) 24 yanvar – Beynəlxalq Təhsil Günü ilə əlaqədar müraciətində deyilir.

Müraciətdə təhsilin birgəyaşayış, tolerantlıq və şəffaflıq dəyərlərinin möhkəmlənməsində, nifrət ritorikası ilə mübarizədə mühüm rolunu xatırladılır. Təşkilat həmçinin sülhə, təhlükəsizliyə və hamı üçün ləyaqətli həyat tərzinə nail olmaq, ayrı-seçkiliyin, marginallaşmanın və irqçiliyin bütün təzahürlərini rədd etmək, müharibələrə və silahlı münaqişələrə son qoymaq, sülhün bərqərar olması istiqamətində işləmək üçün beynəlxalq fəaliyyətə ehtiyac olduğunu bir daha təsdiqləyib.

Müraciətdə vurğulanır ki, bu il əlamətdar gün "Daimi sülh üçün öyrənmə" mövzusuna həsr olunub: "ICESCO hər kəsin, xüsusən də silahlı münaqişələr, işğal və böhranlardan təsirlənən qaçqınlar, məcburi köçkünlər və həssas qrupların təhsil hüququnu qorumaq istiqamətində səy göstərir".

# Qazaxıstan maarifçisi haqqında kitabların təqdimatı

Qazaxıstan Respublikasının Milli Akademik Kitabxanasında dövlət xadimi, maarifpərvər ziyalı Temirbek Jürgenovun (1898–1938) 125 illik yubileyi münasibətilə nəşr edilən kitabların təqdimatı olub.



Kitablar Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY-un dəstəyi ilə ötən il elan olunan "Temirbek Jürgenov İli" çərçivəsində nəşr olunub. Yazıçı Beybit Koyşıbayevin "Komissar Jürgenov" kitabı türk dilinə, Almacan Uteqaliyevanın "Temirbek Jürgenov: Zəfər və faciə" kitabı isə rus dilinə tərcümə olunub.

Təqdimat mərasimində çıxış edən TÜRKSOY-un baş katibi Sultan Raev bildirib ki, belə bir görkəmli şəxsiyyətin tarixi̇mizdəki yerini müəyyənləşdirmək, irsini araşdırmaq bugünkü və gələcək nəsillərin borcudur.

Qeyd edilib ki, görkəmli ziyalı, 1938-ci ildə repressiya qurbanı olmuş Temirbek Jürgenov qısa ömründə Orta Asiya xalqlarının maarifləmməsinə böyük əmək sərf edib. O, Tacikistan, Qırğızıstan və Qazaxıstanda müxtəlif vəzifələrdə çalışaraq maarifçilik fəaliyyəti göstərib.

Tədbirdə Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev, Qazaxıstan rəsmiləri, deputatlar, elm, ədəbiyyat xadimləri iştirak ediblər.

Qeyd edək ki, Temirbek Jürgenovun atası, üç qardaşı da 30-cu illərdə repressiya edilərək güllələnib. Həyat yoldaşı 15 il yaxın həbs düşərgələrində olub, 50-ci illərdə reabilitasiya edilib.

# Tarixdə bu gün

## Olaylar, faktlar (26–30 yanvar)



### Xronoqraf

**120 il əvvəl...**

**27 yanvar 1904-cü ildə** Rusiya-Yaponiya müharibəsi başlanıb. İki il sürən müharibədə Rusiya məğlub olub və Uzaq Şərqdəki strateji Port-Artur limanını itirib.

**101 il əvvəl...**

**27 yanvar 1923-cü ildə** Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi Bakı Teatr Texnikumunun – Şərqdə ilk teatr məktəbinin təşkili barədə qərar qəbul edib.

**91 il əvvəl...**

**30 yanvar 1933-cü ildə** Almaniya Reyxstaqında (parlament) sayca üçüncü fraksiyaya malik olan Nasional-Sosialist Partiyasının lideri Adolf Hitler prezident Petr Qindenburq tərəfindən reyxskansler (baş nazir) təyin olunub. Bu, Hitlerin de-fakto hakimiyyətə gəlişi idi. Bir il sonra Qindenburq vəfat etdi və Hitler qanunla prezidentlik institutunu ləğv etdi. Almaniyada faşist diktaturası bərqərar olundu.

**90 il əvvəl...**

**26 yanvar 1934-cü ildə** Ümumittifaq Kommunist Partiyasının XVII qurultayında ("qaliblərin qurultayı") Stalin tərəfindən antisovet qüvvələrə qarşı total repressiyanın konsepsiyası bəyan edilib. Bu, SSRİ-də kütləvi repressiyaların başlanmasına zəmin idi. Həmin konsepsiyanın ilk qurbanları elə ona səs verənlər oldular. 1937-ci ilədək XVII qurultayın 1966 iştirakçısından 1108-i güllələnmişdi.

**82 il əvvəl...**

**29 yanvar 1942-ci ildə** SSRİ, Böyük Britaniya və İran arasında faşist Almaniyasına qarşı alyans barədə saziş imzalanıb. Sazişə əsasən, İran ərazisində – Cənubi Azərbaycanda SSRİ-nin hərbi kontingenti yerləşdirildi və müharibənin sonunadək (1945) sovet qoşunları orada qaldı.

**38 il əvvəl...**



**28 yanvar 1986-cı ildə** ABŞ kosmik tədqiqatlar sahəsində böyük faciə ilə üzləşib. "Çelencer" kosmik gəmisi (çoxdəfəli istifadə olunan) startdan sonra 73-cü saniyədə partlayıb. Gəmidəki 7 kosmonavtın ölümü Amerika üçün şok oldu. 2003-cü il fevralın 1-də Amerika ikinci belə şok yaşadı: "Columbia" şattlının partlaması nəticəsində yenə 7 kosmonavt həlak oldu.

**32 il əvvəl...**



**28 yanvar 1992-ci ildə** Qarabağ müharibəsi gedişində erməni silahlı qüvvələri Azərbaycanın dinc əhalisinə ən böyük terror aktlarından birini həyata keçiriblər. Ağdam-Şuşa marşrutu ilə uçan "Mİ-8" sərnişin vertolyotu Xankəndidən atılmış raketlə vurulub. Vertolyotdakı 47 nəfərin hamısı həlak olub. Bu, dünya aviasiya tarixində ən böyük mülki vertolyot qəzalarından sayılır.

**30 yanvar 1992-ci ildə** Praqada Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin (1994-cü ildən ATƏT adlanır) üzvü olan ölkələrin Xarici İşlər Nazirləri Şurasının toplantısında Azərbaycan və Ermənistan quruma üzv qəbul olunub.

**Hazırladı: V.Orxan**

# Dünyanın sonuna 90 saniyə qalıb...

## "Qiyamət günü saatı" belə göstərir

Bəşəriyyəti dünyanı təhdid edən ən böyük təhlükələr barədə xəbərdar etmək üçün qurulan "Qiyamət günü saatı"nın əqrəbləri ilk dəfə sona bu qədər yaxınlaşıb.

"Qiyamət günü saatı" dünyanın sonuna 90 saniyə qaldığını göstərir. 2024-cü ilin yanvarında saatın əqrəbləri rekord nişana çataraq, gecəyarısına ("Qiyamət günü") 90 saniyə qalmasını göstərir. Halbuki bir neçə il əvvəl bu göstərici 100 saniyə idi.

"Qiyamət günü saatı" amerikalılar tərəfindən Yaponiya şəhərlərinə ilk atom bombasının atılmasından iki il sonra, 1947-ci ildə Çikaqo Universitetinin "Nüvə alimlərinin bülleteni" jurnalının təqdim etdiyi layihədir. Əvvəlcə əsas diqqət nüvə silahı təhlükəsinə ayrılmışdı, lakin son onilliklər diqqət iqlim dəyişmələrinə də ayrılır. 2024-cü ildə tədqiqatçılar nüvə silahının tətbiqi, iqlim dəyişmələri, bioloji təhdidlər, süni intellekt və müharibələr kimi təhlükələri nəzərə alaraq dünyanın sonunadək olan vaxtı belə kritik həddə müəyyən ediblər.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az

**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**Tiraj:** 5078. **Sifariş:** 192

**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MƏDƏNİYYƏT QƏZETİ REDAKSİYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641